# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 08 (3521) Cümə axşamı / 29 fevral - 6 mart 2024-cü il Qiymәti 40 qәpik


# Parisdən fərqli Berlin

***Uzun fasilədən sonra Avropa platformasında Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının yeni raunduna start verilib. Dünən hər iki ölkənin xarici işlər nazirləri - Ceyhun Bayramovla Ararat Mirzoyan Berlində bir araya gəlib. Budəfəki görüş Prezident İlham Əliyevlə Nikol Paşinyan arasında Münhendəki ikitərəfli müzakirələrin davamı kimi qiymətləndirilir. Qeyd edək ki, Almaniyada baş tutan danışıqlar Avropanın vasitəçiliyi ilə aparılan əvvəlki müzakirələrdən bir sıra məqamlara görə fərqlənir. Bu dəfə ev sahibi qismində Avropa İttifaqı Şurası və ya Brüssel yox, Berlin çıxış edir. Həmçinin Almaniyanın ev sahibliyi ilə reallaşan ikitərəfli müzakirələrdə danışıqlar prosesinə daim əngəl yaradan, təxribat xarakterli fəaliyyəti ilə gözdən düşmüş Makron Fransası da yoxdur.***



Yəni danışıqların müsbət ab-havada və ikitərəfli formatda aparılması üçün ehtiyac duyulan mühit yaradılıb. Bu yanaşma, həm də Almaniya dövlətinin iki ölkə arasındakı sülh prosesinə bitərəf mövqeyi kimi xarakterizə edilir. Danışıqlar prosesində nəticələrin necə olacağı isə başqa mövzudur. Qeyd edək ki, Almaniya hökumətinin məlum yanaşması Prezident İlham Əliyev tərəfindən də təqdir edilib. Dünən Prezident Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bu məsələnin üzərində xüsusilə dayanıb.

### Azərbaycan fərqli addımlar atmır

**Dövlət başçısı kansler Şoltsun təşəbbüsü ilə bu yaxınlarda Münhendə Ermənistanın baş naziri Nikol Paşinyanla keçirilən görüşün sülh prosesinə dinamizm gətirilməsi baxımından önəmini vurğulayıb.** Bununla yanaşı, Almaniya tərəfinin təklifi ilə xarici işlər nazirləri arasında Berlində görüşün keçirilməsinin də Azərbaycan tərəfindən dəstəkləndiyini qeyd edib. Belə ki, Almaniya qonşuluğunda yerləşən, necə deyərlər, alovun üstünə benzin tökən və Ermənistanı öldürücü silahlarla təchiz edən Fransadan fərqli olaraq sülh prosesində neytrallıq nümayiş etdirir.

”Beynəlxalq hüquq normaları bizim tərəfimizdədir”, - deyən Prezident İlham Əliyev vurğuladı ki, ölkəmizin öz suverenliyi və ərazi bütövlüyünü təmin etməsi ilə bağlı bizi hər hansı günahlandırma cəhdləri tamamilə əsassız və qərəzlidir. Azərbaycan öz ərazisini və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır.



> *Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur*

> *Azərbaycan öz ərazisini və suverenliyini təmin etməklə bağlı digər ölkələrin atdığı addımlardan fərqli addımlar atmır*

### Cənab Makronun insinuasiyaları

**Dövlət başçısı təəssüf hissi ilə qeyd etdi ki, bu gün ikili standartlar bir sıra beynəlxalq institutlar, o cümlədən Avropa İttifaqı üçün adi hala çevrilib. Bu baxımdan Cozef Borrelin qeyri-adekvat bəyanatları bizi çox məyus edib.**

Əvvəla, onun bu bəyanatları heç bir reallığı əks etdirmir və beynəlxalq hüququn normalarına ziddir. İkincisi, Azərbaycan tərəfi bu bəyanatları ölkəmizə qarşı pərdələnmiş təhdid kimi qiymətləndirir. Belə ki, Borrel bildirib ki, Azərbaycan Ermənistana hücum edərsə, bunun acı nəticələrini görəcək. Əvvəla, Borrel bu məlumatı haradan alıb ki, Azərbaycan Ermənistana hücum etməyi planlaşdırır? Bizdə belə planlar yoxdur. Onlar cənab Makronun insinuasiyalarıdır. Bütün bunlar Fransanın guya Azərbaycanın Ermənistana hücuma hazırlanması ilə bağlı ölkəmizin demonizə edilməsinə əsaslanan anti-Azərbaycan siyasətinin bir hissəsidir. Ermənistanla sərhəddə son dəfə 2023-cü ilin sentyabrında ciddi gərginləşmədən sonra bu ilin fevralınadək olan dövrdə sərhəddə vəziyyət sakit idi. Lakin fevral ayında erməni snayperi Azərbaycan əsgərini ağır yaraladıqdan sonra biz buna vaxtında adekvat və dəqiq cavab verməli olduq. Bizim bu cavab bir neçə dəqiqə çəkdi və Ermənistanın bunu dərk etməsinə kifayət etdi ki, azərbaycanlıların öldürülməsi cəhdi cəzasız qalmayacaq və dediyim kimi, ötən ilin sentyabrından bu hadisə istisna olmaqla sərhəddə sakitçilik hökm sürür. Deməli, cənab Borrel və cənab Makron bu informasiyanı reallıqdan deyil, öz xəyallarından götürürlər.

### Azərbaycan sülh prosesinə sadiqdir

**Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan sülh prosesinə sadiqdir. Məhz biz İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra sülh danışıqları təşəbbüsü ilə çıxış etdik.** Əslində, biz sülh yolu ilə həllin 5 əsas prinsipini işləyib hazırladıq və sülh müqaviləsinin mətninin layihəsini təqdim etdik.

Səh. 2

---

MÜSAHİB

## Biz hərtərəfli qalib olduq



**Tacəddin Mehdiyev,**
Azərbaycanın sabiq müdafiə naziri, general-mayor

***Azərbaycanın sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyevlə hafta.az üçün budəfəki söhbətimizdə Xocalı soyqırımının qisasının alınması, Rusiyanın artıq 3 il 3 aydan çoxdur ki, Azərbaycanın Yuxarı Qarabağ torpaqlarında qalan "sülhməramlı" adlanan hərbi kontingentinin bundan sonrakı taleyi, Ermənistanla sərhəddəki son gərginlik və Rusiya-Ukrayna cəbhəsində son baş verənlər haqqında danışdıq.***

> *Azərbaycan xalqının öz mənliyini, şərəfini, qürurunu bərpa etmək istəyi, əzmi o qədər güclü idi ki, onun qarşısını almaq qeyri-mümkün idi*

Səh. 5

---

MÜSAHİB



**Zərdüşt Əlizadə,**
politoloq

■ Makron çox şey istəyə bilər, amma Azərbaycan buna imkan verməyəcək

■ Ermənilərdə türk musiqisinə, türk ədəbiyyatına böyük məhəbbət var

■ Ermənistanın Azərbaycanla müharibə aparmağa hərbi gücü yoxdur

Səh. 3

---

GÜNÜN FOTOSU...




Yunanıstanın ən ölümcül qatar qəzasının ildönümü

---

GÜNÜN SİTATI

> *Azərbaycan və Ermənistan keçmişi arxada qoymaq üçün cəsarətli addımlar atıb*



**Annalena Berbok,**
Almaniya xarici işlər naziri

---

KARİKATURA



Ermənistanın yeni ordu quruculuğu prosesi

---

## "Xocalıya Ədalət!" çağırışı

**Qabil Hüseynli,**
Professor

Əslində, dünyanın Azərbaycan həqiqətləri ilə bağlı ikili, qərəzli münasibət Xocalı soyqırımı ilə bağlı etinasız yanaşmalarda özünü büruzə verir.

Səh. 5

---

STATİSTİKA



**■ 2024-cü ilin yanvar ayı ərzində daşınmaz əmlak üzərində 29.825 mülkiyyət hüququnun qeydiyyatı aparılıb.**

2024-ilin yanvar ayı ərzində fərdi yaşayış və bağ evi üzərində 4.065, mənzil üzərində 6.477, torpaq sahəsi üzərində 18.447, qeyri-yaşayış binası üzərində 247, qeyri-yaşayış sahəsi üzərində 547, əmlak kompleksi üzərində 40, çoxmərtəbəli yaşayış binası üzərində isə 2 mülkiyyət hüququnun dövlət qeydiyyatı aparılıb.

---



Səh. 6

## Sumqayıt hadisələri təxribat idi

**XƏBƏR LENTİ**

## Azərbaycan və Almaniyanın XİN başçıları görüşüb



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Almaniyaya işgüzar səfəri çərçivəsində fevralın 28-də bu ölkədən olan həmkarı Annalena Berbok ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, görüşdə iki ölkə arasında mövcud əməkdaşlıq gündəliyi, eləcə də Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı vəziyyəti, həmçinin perspektivləri müzakirə olunub. Annalena Berbok iki ölkə arasında münasibətlərin əhəmiyyətini vurğulayıb, ölkəmizin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb.

Ceyhun Bayramov Azərbaycan ilə Almaniya arasında son dövrlər dinamik xarakter daşıması ilə seçilən təmasların məmnunluq doğurduğunu, xüsusilə Münhen Təhlükəsizlik Konfransı çərçivəsində ali səviyyədə aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb.

Almaniyanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində danışıqların təşkilində göstərdiyi dəstəyə və təşəbbüsə görə təşəkkür ifadə edilib. Nazir Ceyhun Bayramov ölkəmizin normallaşma və sülh gündəliyinin irəlilədilməsində qərarlı olduğunu bildirib. Buna baxmayaraq, 5 aya yaxın sürən sabitliyin Ermənistan tərəfindən pozulmasının sülh prosesinə zərbə vurmaq məqsədi daşıdığını diqqətə çatdırıb. Bununla yanaşı, Ermənistanın Konstitusiyasında və qanunvericiliyində, siyasi və hüquqi proseslərdə ölkəmizə qarşı irəli sürülən ərazi iddialarını, qeyri-konstruktiv mövqe və ritorikasını davam etdirməsinin qəbuledilməz olduğu vurğulanıb. Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Rəsulzadənin Ankaradakı məzarının abadlaşdırılmasına başlanıldı

**Məhəmməd Əmin Rəsulzadənin Ankaradakı məzarı abadlaşdırılır. Bu barədə Azərbaycanın Türkiyədəki Səfirliyi məlumat yayıb.**

Bildirilib ki, Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən olan Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinin qeyd olunması ilə bağlı sərəncam imzalayıb.

”Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi dövlət başçısının sərəncamını əsas tutaraq, görkəmli ictimai-siyasi xadimin Ankara şəhərindəki Cəbəci Əsri məzarlığında yerləşən məzarının abadlaşdırılmasına başlayıb.

Həyata keçirilən fəaliyyət Türkiyənin müvafiq dövlət qurumları ilə koordinasiyalı şəkildə həyata keçirilir və M.Ə.Rəsulzadənin vəfat ildönümü olan 6 mart tarixinə qədər yekunlaşması nəzərdə tutulur”.

## Delimitasiya üzrə layihənin metodologiyası təsdiq oluna bilər

**Hazırda Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyalar problemin həlli yollarını müzakirə edirlər. Trend Ermənistan KİV-ə istinadən xəbər verir ki, bunu Ermənistan baş nazirinin müavini Mher Qriqoryan parlamentdə hökumət saatında deyib.**

Onun sözlərinə görə, sənəddə geniş metodik mənzərə öz əksini tapacaq. O əlavə edib ki, 2-3 aydan sonra komissiyaların əsasnamə layihəsini almaq mümkün olacaq ki, bu da sərhədlərin müəyyən edilməsi metodologiyasını əks etdirəcək. Sərhədlərin demarkasiyası və delimitasiyası prosesi uzun müddət çəkəcək.

Qeyd edək ki, yanvarın 31-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın altıncı görüşü keçirilib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Parisdən fərqli Berlin

◂ əvvəli 1-ci səhifədə

Beləliklə, biz əgər sülh istəmiriksə niyə bunların hamısını hazırlamışıq?! Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan əraziləri 30 il Ermənistanın işğalı altında olub. Ermənilər torpaqlarımızın 20 faizini işğal edərək, həmin əraziləri dağıdıblar, o vaxt 1 milyona yaxın soydaşımız məcburi köçkün vəziyyətinə düşdü. Torpaqlarımızı işğal altında saxlayan Ermənistan bu müddətdə BMT TŞ-nın məlum qətnamələrinə, beynəlxalq hüquq normalarına, o cümlədən humanitar normalara məhəl qoymadı.

İki gün əvvəl ildönümünü qeyd etdiyimiz Xocalı soyqırımını törətdilər. İndi biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etdikdən və Qarabağda separatizm yuvasını dağıtdıqdan sonra hücumlara məruz qalmışıq. Biz Makron, Borrel və onlar kimi digər insanlar tərəfindən günahlandırılırıq.

Ukraynanı götürək: Ukrayna öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Almaniya və digər ölkələr Ukraynaya silahlar göndərir. Siz hamınız bəyan edirsiniz ki, Ukrayna öz ərazi bütövlüyünü təmin etməlidir. Bəs bizim ərazi bütövlüyümüz?! Məgər bu məsələ Ukrayna məsələsindən daha az önəmlidir? Əfsuslar olsun, biz Cənubi Qafqazda ayrıca xəttlərin qurulması cəhdlərini görürük. Bununla bağlı Azərbaycanda bir çox insanlar belə düşünürlər ki, Avropa institutları tərəfindən Cənubi Qafqazda Gürcüstan və Ermənistanı çox yaxın qəbul etdikləri, Azərbaycanın isə demonizə edildiyi bir şəraitdə yeganə çıxış yolu bizim İslam dinimizdir.

Mən demirəm ki, bu mənim şəxsi fikrimdir, insanların çoxu belə düşünür. Biz öz ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etdikdən sonra Avropa Şurası Parlament Assambleyası Azərbaycan nümayəndə heyətinin səs hüququndan məhrum edilməsi barədə qərar qəbul edir. Əfsuslar olsun ki, bu qərar Almaniya parlamentinin üzvünün təşəbbüsü ilə qəbul olunub və o şəxs kansler Şoltsun rəhbərlik etdiyi partiyanın üzvüdür. Bu ikili standart deyilmi, yoxsa bizimlə aparılan bir oyundur?! Almaniya kansleri qərəzsizlik nümayiş etdirir və onun bəyanatları və fəaliyyəti bunu əks etdirir. Onun rəhbərlik etdiyi partiyanın üzvü isə AŞPA-da 2 qeyri-xristian ölkəsindən biri olan Azərbaycanı uzaqlaşdırmaq istəyir və bunu nümayişkarcasına və məqsədyönlü şəkildə edir. Bildiyiniz kimi, biz bu qurumun sessiyalarında iştirak etməmək qərarına gəlmişik. Çünki, əgər bizim öz mövqeyimizi bildirmək hüququmuz yoxdursa, nəyə görə biz orada olmalıyıq.



### Avropa Şurasına xəbərdarlıq

**Prezident İlham Əliyev bildirdi ki, əgər bir il ərzində nümayəndə heyətimizin hüquqları bərpa olunmazsa, biz Avropa Şurasından tamamilə çıxmağımız barədə məsələyə ciddi şəkildə baxa bilərik.**

Dövlətimizin başçısı bir məsələni də əfsuslar hissi ilə qeyd etdi ki, Almaniya mətbuatında Azərbaycan guya azadlıqların təmin olunmadığı, insanların öz fikirlərinə görə həbs olunduğu, diktaturanın hökm sürdüyü despotik bir ölkə kimi təqdim edilir. “Bu, tamamilə yalandır və mən bundan təəssüf hissi keçirirəm”, - deyən Prezident İlham Əliyev bunu həmin yazıların müəlliflərinin özlərinin də yaxşı bildiyini vurğuladı və qeyd etdi ki, Azərbaycanda bir neçə ildir fəaliyyət göstərən Almaniya səfiri də ölkəmizdə gedən proseslərin şahididir.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan haqqında bilərəkdən çox mənfi təəssürat yaradılır. Dövlətimizin başçısı dedi: “Bütün bunlar bizim həyata keçirdiyimiz işlərə mane ola bilərmi?! Xeyr! Biz istər ərazi bütövlüyünün bərpası, istər iqtisadi gündəliyimizlə bağlı öz xalqımızın, ölkəmizin rifahı naminə işlər görürük”.

### Azərbaycan özünü təmin edən ölkədir

**Azərbaycanın özünü təmin edən ölkə olduğunu qeyd edən dövlətimizin başçısı bildirdi ki, ölkəmizdə gedən proseslər və həyata keçirilən işlər Azərbaycanın normal həyatını təmin edir.** Kimsə bizim inkişafımıza töhfə vermək istəyirsə biz minnətdar olarıq. Bu olmazsa biz yenə də təəssüflənməyəcəyik. Sovet dövründə 70 il ölkəmizin dövlətçilikdən məhrum olduğunu deyən Prezident İlham Əliyev qeyd etdi ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini yenicə bərpa etdiyi vaxtda Ermənistanın ölkəmizə qarşı təcavüzü ilə üzləşdi və müstəqilliyin bərpasından 4 ay sonra ermənilər Xocalı soyqırımını törətdilər. Yüzlərlə şəhər və kəndlərimizi işğal etdilər, oraları dağıtdılar. Otuzillik bir müddətdə özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar.

Və biz öz torpaqlarımızı azad etməyə başlayanda bu üç ölkə bizə təzyiqlər göstərməyə başladı. Hər biri bizi öz yolumuzdan döndərmək üçün müxtəlif alətlərdən istifadə etdilər. Onlar istəmirdilər ki, biz öz torpaqlarımızı azad edək.

Ötən ilin sentyabrında biz separatizmə son qoyduğumuz zaman onlar yenə də səhv etdilər. Onların bəziləri indi də səhv edirlər. Mən ABŞ və Fransanı nəzərdə tuturam. Düşünürəm ki, Rusiya indi nəyin baş verdiyini yaxşı anlayır və yeni reallıqları qəbul edir. ABŞ və Fransa da eyni cür hərəkət etməlidirlər.

Əks təqdirdə, vəziyyət onların planlaşdırdığı kimi olmayacaq. Bu ölkələr Cənubi Qafqazda buranın aparıcı ölkəsi, iqtisadiyyatı, ordusu, geniş beynəlxalq əlaqələri olan Azərbaycan ilə işləməlidirlər. Göründüyü kimi, Prezident İlham Əliyev bir daha mövcud vəziyyəti tam aydınlığı ilə birbaşa olaraq açıqlayır və zəruri mesajlarını verir. Dövlət başçısının qeyd etdikləri bölgədə davamlı və etibarlı sülhün bazisini təşkil edir. Ermənistan əgər sülhdə maraqlıdırsa, bu mesajlardan nəticə çıxartmalı və ölkəmizə qarşı ərazi iddialarına, revanşist yanaşmalara birdəfəlik son qoymalıdır. Əks təqdirdə, Azərbaycanın yeni dönəminin gündəliyində sülh o qədər də mühüm önəm kəsb etmir.



✍ *Ləman Əliyeva*

# Ermənistan Rusiyanın sirlərini satmağa hazırlaşır

***Ermənistanın baş naziri Nikola Paşinyanın Parisə səfərindən sonra, Fransa xüsusi xidmət orqanları (DSGE) ilə Ermənistan kəşfiyyatı arasında dörd ölkə - Azərbaycan, İran, Rusiya və Türkiyə üzrə kəşfiyyat məlumatlarının mübadiləsinə dair razılıq əldə olunub. Bu barədə Fransanın “Aqoravox” nəşri məlumat yayıb. “Əgər bu “sızma” təsadüfi deyilsə, onda belə çıxır ki, başa düşülən odur ki, tək Azərbaycan deyil, həmçinin Türkiyə, İran və Rusiya ilə sərhədlərdəki hərbi-siyasi vəziyyət indi Ermənistanın qondarma informasiya hədəfinə çevrilir”, rusiyalı ekspert Stanislav Tarasov qeyd edib.***



## Aktual

Fransa və Ermənistanın Cənubi Qafqazda kəşfiyyat fəaliyyətinin intensivləşməsi regionun Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanmasına yox, hansısa növ hərbi əməliyyatlara hazırlığından bəhs edildiyi üçün “sızma” termini təsadüfi işlədilmir. Həmçinin məlum olur ki, NATO üzvü Fransa və KTMT üzvü Ermənistan kəşfiyyat məlumatlarının mübadiləsinə başlayır ki, bu da yeri gəlmişkən, İrəvanın təşkilatda fəaliyyətinin “dondurulması” deyil, Ermənistanın bu strukturdan çıxması deməkdir. Bu, təkcə Rusiyaya aid deyil”, - Tarasov qeyd edib.

Ekspert hesab edir ki, İran və Türkiyə Ermənistanın diplomatik və digər münasibətləri bərpa etməyə çalışdığı ümumi Fransa-Ermənistan əməliyyat və kəşfiyyat maraqları zonasına daxil edilir.

“Ona görə də bu problemin yalnız Trans-Qafqaz aspektini nəzərə alaraq deyə bilərik ki, Ermənistan regional beynəlxalq münasibətlər sistemində “dibə vurur”. Bütün Cənubi Qafqazda vəziyyət haqqında məlumat toplayan Fransa kəşfiyyat idarəsinin bu yaxınlarda Azərbaycandakı uğursuzluğunu xatırlamaq kifayətdir. İndi İrəvan bu Qərb kəşfiyyatının regionda qalasına çevrilir”, - deyə Tarasov bildirib. Ekspert hesab edir ki, bu, Qafqazda “erməni məsələsinin Yaxın Şərqə qayıdışı” və onun kürd problemi ilə mümkün əngəllənməsi əlamətləri ilə “böyük oyun”un yaranmasının əlamətidir:

“Üstəlik, Ermənistanla yanaşı, bu regionda Fransaya əsas siyasi dayaq Avropa və ABŞ-dakı erməni diasporu ola bilər. Eyni zamanda, Paris Trans-Qafqaz-Yaxın Şərq körpüsündən öz xeyrinə istifadə etmək üçün diplomatiyası və kəşfiyyatı üçün əlavə “imkan pəncərəsi” əldə edir. Unutmaq olmaz ki, ötən əsrin 20-ci illərindən başlayaraq Fransanın xüsusi xidmət orqanları ilə Ermənistanın “daşnaksütyun” partiyasının gizli hərbi qanadı arasında sıx əlaqələr mövcuddur. Fransa mətbuatının yazdığına görə, ötən əsrin 90-cı illərinin əvvəllərində Fransa kəşfiyyatı erməni gizli təşkilatlarından Livan, Suriya, İran və Qafqazdakı vəziyyətlə bağlı çoxlu məlumatlar əldə edib. Ona görə də Fransa prezidenti Emmanuel Makron və Paşinyanın Qafqazın keşməkeşli tarixini “oyatmaq” və orada “Pandora qutusu” açmaq qərarına gəlməsi Ermənistan üçün yaxşı heç nə vəd etmir”, - Tarasov vurğulayıb.

> “
>
> *Ermənistanla yanaşı, bu regionda Fransaya əsas siyasi dayaq Avropa və ABŞ-dakı erməni diasporu ola bilər*
>
> *Fransa Ermənistana ağır silahların verilməsini fəal şəkildə tövsiyə edir*

■ **Rusiyalı jurnalist Sergey Mardan deyir ki, kollektiv Qərbin Rusiya sərhədləri yaxınlığında genişmiqyaslı müharibəyə hazırlığı ilə bağlı xəbərlər dünyada getdikcə daha çox yayılmağa başlayıb.** O, bu barədə Telegram kanalında yazıb. Hərbi hadisələrin episentri Ermənistanın paytaxtı İrəvan olmalıdır. Mardan deyir ki, xəbərlər ölkəni ən müsbət tərəfdən göstərmir: Azərbaycan mövqelərinin atəşə tutulması, atəşkəsin sistematik şəkildə pozulması, Ermənistan ərazisinə Avropa İttifaqının hərbi missiyasının yerləşdirilməsi, NATO generallarının səfərləri, məxfi məlumatların sızması və s. Bundan başqa, Ermənistanda anti-Rusiya ritorikası var, Ermənistanın özündə də Rusiyaya qarşı mitinqlər keçirilir. Bütün bunların fonunda bir çox sağlam düşüncəli insanlar sual edirdilər: “Ermənistanın baş naziri Nikol Paşinyanın başında nə var, bütün bu hərəkətlərin məntiqi nədir?”. Və deyəsən, indi maskalar atılıb.

Onun sözlərinə görə, Qərb mediasının jurnalistləri həyəcan təbili çalmağa və Azərbaycanın Ermənistana qarşı mümkün təcavüzündən danışmağa başlayıblar. Onlar müəyyən “gizli” məlumatlara istinad ediblər ki, onları təsdiqləmək mümkün deyil - guya Bakı İrəvana hərbi hücum planlaşdırır. Bu səbəbdən amerikalı və avropalı jurnalistlərin fikrincə, Ermənistanın təcavüzə qarşı müqavimət göstərməsi üçün köməyə ehtiyacı var.

“Əlbəttə, bu cür ritorika Ukraynada hər kəsə çox tanışdır. Avropanın təklif etdiyi İrəvana dəstək üsulları da Ukrayna məsələsinə bənzəyir: NATO mütəxəssislərini göndərin, ölkəni silahla doldurun, öz agent şəbəkənizi yaradın. Bütün bunlarla Fransa xüsusi məşğul olacaq. Paris son vaxtlar münaqişənin qızışdırılmasını qəti şəkildə müdafiə etməyə başlayıb. Bir gün əvvəl Makron Ukraynaya NATO hərbi kontingentinin göndərilməsi imkanının nəzərdən keçirildiyinə eyham vurmuşdu. Düzdür, bu bəyanatdan sonra Makronun Aİ-dəki bütün dostları az qala bir ağızdan NATO əsgərlərinin heç yerə getməyəcəyini qışqırmağa tələsdilər”, - deyə Mardan yazır.

Bununla yanaşı, jurnalist əlavə edir ki, Paşinyan Fransaya güzəştə getməyə hazır olduğunu və bacarığını göstərməyə çalışır. Ermənistanın baş naziri bu yaxınlarda Parisə səfəri zamanı kəşfiyyat məlumatlarının mübadiləsinə dair saziş bağlayıb. İndi Ermənistan Rusiya, Azərbaycan, İran və Türkiyə ilə bağlı məlumatları Fransa ilə paylaşacaq.

NATO qoşunları erməni piyadalarına təlim keçmək üçün İrəvana gəlməkdə davam edir. Fransa Ermənistana ağır silahların verilməsini fəal şəkildə tövsiyə edir. Paşinyan özü də anti-Rusiya əhval-ruhiyyəsini gücləndirir, Moskvanı bütün mümkün günahlarda ittiham edir. Kreml hələ də Ermənistanın fəaliyyətinə ciddi reaksiya verməyib: “Bütün bunlar baş verərkən çoxları vacib bir məqamı əldən verir: Ermənistan hələ KTMT-dən çıxmayıb. Baxmayaraq ki, Ermənistanın hələ də qovulmadığını söyləmək daha düzgün olardı”.

✍ *Vüsal Tağıbəyli*

# Paşinyan özünə "dayı" axtarır

***Cənubi Qafqazda müşahidə olunan "fransız tüstüsünün ətri" regionun geosiyasi mənzərəsini bulandırmaqda davam edir. Fransa regionun zəif bəndi olan işğalçı, revanşist iddialarından əl çəkməyən Ermənistanla bir olaraq Azərbaycana iftira, qərəz yağdırır. Politoloq Zərdüşt Əlizadə ilə söhbətimizdə də bu məsələlər ətrafında müzakirələr apardıq:***

## Müsahib



**Zərdüşt Əlizadə,**
politoloq

***- Uzun zaman Ermənistan Azərbaycan torpaqlarını işğalda saxladı. Cənubi Qafqazı öz orbiti hesab edən Rusiyanın regionda apardığı siyasətin fəsadları daim önə çəkilirdi. İndi isə Vətən müharibəsi qələbəsindən sonra regiondakı qarışıq vəziyyətin "baş rolu"nda Fransa çıxış edir. Nələr baş verir?***

- Rusiyanın siyasi rəhbərliyi və xüsusi xidmət orqanları Qarabağ ermənilərindən alət kimi istifadə edib, regionda münaqişə ocağı qaladı. Özlərini isə vasitəçi kimi sırıyıb 30 ilə yaxın müddətdə həm Ermənistanı, həm Azərbaycanı nəzarətləri altında saxladılar. Qarabağ məsələsi, artıq Azərbaycanın xeyrinə həll edilib. İndi də Fransa çalışır ki, Qarabağ ermənilərini qızışdırıb onlardan alət kimi istifadə etsin. Qarabağda "dəlik" yaradıb Cənubi Qafqaza soxulsun. Azərbaycan buna imkan vermir, Fransanın vasitəçilik iddialarına açıq-aşkar rədd cavabı verir. Azərbaycan rəhbərliyi, hətta Fransanın həyasızcasına soxulduğu beynəlxalq görüşlərə qatılmır. Fransa harada varsa, Azərbaycan Prezidenti orada iştirak etməyəcəyini bildirir. Ermənistana və Azərbaycana sülh lazımdır.

Ona görə də Azərbaycan Ermənistanla ikitərəfli formatda görüşün keçirilməsini təklif edir. Ötən ilin dekabr ayında belə bir görüş keçirildi, irəliləyiş əldə olundu. İkitərəfli format əsasında delimitasiya komissiyası iki dəfə görüşüb. Eləcə də liderlər ikitərəfli formatda Almaniyann ev sahibliyi ilə görüşdülər və indi də Ermənistan-Azərbaycan danışıqları ikitərəfli formatda gedir. Paşinyan bu görüşdə zəif göründüyü üçün özünə "dayı" axtarır və ona görə də bu görüşdən dərhal sonra Parisə gedib, sərsəm bəyanatlar verdi. Paşinyanın dediyi sözlərə əhəmiyyət vermirik. Əsas odur, istədiyimizi əməli olaraq həyata keçiririk.

Azərbaycan Prezidenti Ankaraya səfərində Ərdoğanla görüşdü. Ərdoğan açıq şəkildə "əgər Ermənistan Azərbaycanla münasibətləri tənzimləsə, elə həmin an Türkiyə Ermənistanla münasibətlərini sahmana salmağa hazırdır", dedi. Bu, çox müsbət mesaj idi. Burada Fransanın həll edə biləcəyi problem qalmır. Azərbaycan Fransanın vasitəçiliyini qəbul etmirsə, Paris heç nə edə bilməz. Fransa Qafqaza qoşun yeridəsi deyil. Buna yolu da, qoşunu da, hüquqi əsası da yoxdur. Makron çox şey istəyə bilər, amma Azərbaycan buna imkan verməyəcək.

***- Fransanın Azərbaycana qarşı "erməni qərəzi" regionda baş tutmuş layihələrdən kənarda qalması fonunda doğan aqressiyadır. Hesab olunur ki, Fransa burada tək deyil, o, regionda marağı olan bəzi güclərin əsas oyunçusu kimi çıxış edir. Fransa Ermənistanı silahlandırıb, Azərbaycana, hətta Rusiyaya qarşı qızışdırmaqla vəziyyəti necə dəyişdirə bilər?***

- Fransanın hansısa fövqəldövlətin aləti olduğunu düşünmürəm. Dünyada Fransadan böyük qüvvə ABŞ-dır. Amerika öz siyasətini yürütməyə qadirdir və Cənubi Qafqazda sülh, barış istəyir. Fransa isə aranı qarışdırmaq istəyir. Bu da ondan irəli gəlir ki, özü haqqında müştəbehlik edir. Fransaya anlatmaq lazımdır ki, ayağını yorğanına görə uzatsın. Fransa Cənubi Qafqazdan keçən dəhlizlərə nəzarət etmək istəyir. İki dəhliz var: Şimal-Cənub, Şərq-Qərb. Şərq-Qərb dəhlizində Çin, Mərkəzi Asiya dövlətləri maraqlıdır. Şimal-Cənub dəhlizində Rusiya, İran və digər bir neçə dövlət. Azərbaycan Türkiyə, Gürcüstanla birlikdə Çin, Rusiya, İran, Avropa üçün körpü rolunu oynayır. Bu körpü ciddi əhəmiyyətə malikdir. Avropanın, Çinin, Rusiyanın Azərbaycana diqqəti bu ölkənin bölgədəki əhəmiyyətini dərk etmələri ilə bağlıdır. Bu dövlətlər çalışırlar ki, Azərbaycanın da mənafeyini nəzərə alsınlar. Əgər burada Ermənistan səfehcəsinə öz mənafeyini Azərbaycanın mənafeyinə qarşı qoyursa, o zaman ona açıq deyəcəklər ki, bizə sən yox, Azərbaycan lazımdır. Rusiya öz ərazilərindən başlayan, Azərbaycandan keçən, İrana daxil olub oradan azad sulara çıxan, Hind okeanına gedən Şimal-Cənub dəhlizində maraqlıdır. Zəngəzur yolu da açılsa, Rusiya dəmir yolu ilə Türkiyəyə, Yaxın Şərqə çıxacaq. Bu, Rusiyaya lazımdır və həmin yola nəzarəti öz əlinə almaq niyyəti var.

***- Fransa bu prosesdə Paşinyanı Azərbaycana, həm də Rusiyaya qarşı qaldırmaqla nəyə nail ola bilər?***

- Fransanın Rusiya ilə Ermənistanı - Paşinyanı qarşı-qarşıya gətirmək fikri yoxdur. Paşinyan özü çoxdan Rusiyaya qarşı qalxıb. Ermənisan özünün uğursuz Qarabağ siyasətinə görə, siyasi, iqtisadi, hərbi, mənəvi cəhətdən Rusiyadan o qədər asılı vəziyyətə düşüb ki, bu asılılıqdan qurtara bilmir. Paşinyan addım-addım, böyük səbirlə Rusiya ilə olan qandallarını açır. İndi Paşinyan Rusiya asılılığından qurtulmağının yeni mərhələsindədir. O, Rusiyada təhsil almış rəhbər şəxsləri başqa ölkələrdə təhsil almış kadrlarla əvəz dir. Bunu ona görə edir ki, ölkədə çevriliş baş verməsin. Məhkəmə sistemini təmizləyəndən sonra Rusiya ilə asılılığı azalacaq. Düzdür, Ermənistanda rusiyameyilli siyasi müxalifət var, amma onların da mövqeləri mütəmadi olaraq dəyişir. Ola bilər ki, gələn il keçirilən parlament seçkilərində parlamentə də düşmədilər.

> *Makron çox şey istəyə bilər, amma Azərbaycan buna imkan verməyəcək*
>
> *Ermənilərdə türk musiqisinə, türk ədəbiyyatına böyük məhəbbət var*
>
> *Ermənistanın Azərbaycanla müharibə aparmağa hərbi gücü yoxdur*

***- Regionda Azərbaycana qarşı Ermənistan üzərindən müşahidə olunan qərəz və təzyiqlər daha çox Qərb, Avropadan gəlir. Fransa daha çox aktivdir. Ermənistan Fransanın təhrki ilə müharibəyə başlaya bilər?***

- Xeyr. Ermənistanın Azərbaycanla müharibə aparmağa hərbi gücü yoxdur. Azərbaycanın da Ermənistanla müharibə aparmağa marağı yoxdur. Müharibə regiona ziyandan başqa heç nə vəd etmir. Azərbaycan öz dövlət sərhədlərini bərpa etdikdən sonra ona bu qələbəni dünyaya tanıtması vacibdir və bunu edib. Azərbaycana lazımdır ki, Ermənistanla münasibətlər normal hala düşsün.

Bizə Ermənistanın bir qarış torpağı da lazım deyil. Məsələn, bu gün Mehri yolu Naxçıvanla quru əlaqənin qurulması üçündür. Bu yol olmasa da, 35 ildir Naxçıvanla əlaqəmiz kəsilməmişdi. Təyyarələr ucur, avtobuslar İran ərazisindən işləyirdi. Bu gün də İran ərazisindən keçəcək 4 körpü layihəsi var ki, artıq bunların bünövlərələi qoyulub, yollar çəkiləcək. Çayın hansı sahilindən olsa da, Naxçıvana keçid baş tutacaq. İran bu yolu verir və Azərbaycan etiraz etmir. Ermənistan Zəngəzur yolunun açılmamasında israr etsə də, Azərbaycandan gedən qatar Naxçıvana gələcək.

Yəni Ermənistan anlamalıdır ki, Zəngəzur dəhlizinin açılması Azərbaycandan çox ona xeyirdir. Ermənistan mühasirədən çıxmaq üçün Zəngəzur yolunu açmalıdır. Prezident İlham Əliyev də bəyan edib ki, əgər Zəngəzur yolunu açmasalar, sərhədlər açılmayacaq.

Ermənistan rəhbərliyində siyasəti, iqtisadiyyatı bilən, hesablamalar aparan kifayət qədər peşəkar, ağıllı adamlar var. Onlar anlayırlar ki, Azərbaycanın sülh naminə irəli sürdüyü şərtlər onların özü üçün də əlverişlidir və bunu qəbul etməlidirlər. Azərbaycanın təklif etdiyi sülh şərtləri ilə müqavilə bağlansa, münasibətlər tənzimlənsə, bütün bağlı yollar açılacaq.

***- Azərbaycana qarşı aqressiv çıxışları ilə gündəm olan Fransa buna imkan verəcəkmi?***

- Ermənistan Fransanın kəbinli arvadı deyil ki, onun dediklərini mütləq etsin. İndi XXI əsrdir. Hər bir dövlətin beynəlxalq hüququ var. Vaxtilə Azərbaycan nə edirdisə, Rusiyadan icazə alırdı. İndi müstəqil şəkildə beynəlxalq siyasət yürüdür və özünün haqqı uğrunda dünya dövlətləri, beynəlxalq qurumlarla sərbəst, müstəqil əməkdaşlıq əlaqələri qurub. Ermənistan da bunu etməyə çalışır, amma yenə də böyük səhvlərə yol verir. Fransadan nəsə dəstək, dayaq umur. Ermənilər daim xaricdən özlərinə dayaq axtaran zəif millətdir. Düşünürlər ki, hansısa böyük dövlət bunların milli təhlükəsizliyinə zəmanət verməlidir. Eyni zamanda, onu da anlasınlar ki, bu bölgədə milli təhlükəsizliklərinə ən böyük zəmanət Türkiyədir. Ermənistan öz təhlükəsizliyini Türkiyəyə etibar etsə, Türkiyə onu qoruyacaq. Ermənistan Fransaya güvənməməlidir.

***- Ermənistanın Rusiyadan uzaqlaşması, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətini dondurması, Rusiyadan xilas olub Fransanı özünə yeni təhlükəsizlik çətiri hesab etməsi... Bunlar nə vəd edir?***

- Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı bir ilğımdır, gerçək, fəal, siyasi, həqiqi qüvvə deyil. KTMT-də Rusiyanın hərbi-siyasi çətirinin altında toplanmış dövlətlər var. Onlar bir-bir, yavaş-yavaş canlarını qurtarırlar. Azərbaycan üçün Ermənistanın silahlanması təhlükə törətmir. Ona görə ki, bizim çəki dərəcələrimiz fərqlidir və Ermənistan bizə rəqib ola bilməz. Nə qədər məharətli olsa da, yarışda uduzmağa məcburdur. Ermənistan rus silahı ilə deyil, Qərb silahı ilə silahlanır. Biz buna tək Ermənistan-Azərbaycan qarşıdurması prizmasından deyil, həm də Rusiya-Ermənistan qarşıdurmasından yanaşmalıyıq.

***- Ermənistan vasitəsilə regionda öz maraqlarını həyata keçirmək istəyən Qərbin, Avropanın İrəvana dəstəyi regiona nə verə bilər?***

- Qərbin Cənubi Qafqaza sirayət etməsi, daxil olması üçün ən əsas tərəf müqabili Azərbaycandır. Burada Gürcüstan və Ermənistan olsa da, onların heç bir rolu yoxdur. Qərb Azərbaycanla neft və qaz müqavilələri bağlayaraq, dəmir yolları çəkməklə Cənubi Qafqazda çox güclü iqtisadi, geosiyasi mövqelərə malik olub. Azərbaycan nisbətən ağır, güclü ölkədir. Təbii sərvətləri, Mərkəzi Asiyaya, Xəzəryanı ölkələrə çıxışı var. İranla, Rusiya ilə həmsərhəddir. Deməli, Qərb üçün ən sərfəli ölkə Azərbaycandır.

***- Rusiya Ermənistanda hərbi çevriliş edə bilərmi?***

- Hər hansı təzahürə tarixi hadisə kimi yanaşmaq lazımdır. Rus rəhbərliyi hakimiyyət naminə SSRİ-ni dağıtdı və Putin hakimiyyətə gələndən sonra Kubada elektron kəşfiyyat bazasını, sonra isə Vyetnamda hərbi dəniz donanmasını öz təşəbbüsü ilə ləğv etdi. Rusiya dünyadakı hərbi mövcudluğunu get-gedə məhdudlaşdırır. İndi Tacikistanda, Qırğızıstanda, Suriyada hərbi bazaları var. Ukrayna Qara Dəniz Donanmasının 25 faizini məhv edib, 75 faizi isə Novorossiysk və Abxaziya sahillərində gizlənib. Deməli, Rusiyanın Hərbi Dəniz Donanması öz təsir gücünü itirib.

Gümrü bazasına gəldikdə isə orada əvvəl 45 minə yaxın hərbçi var idi, indi isə 4 mindir. Bunun da 70 faizini erməniəsilli rus vətəndaşları təşkil edir.Rusiyadan Ermənistana qarşı təhdid yoxdur. Rusiya Ukraynada olduğu kimi, çevrilişə cəhd etsə, həmin 4 minlik ordu 20 minlik erməni ordusu tərəfindən üzük qaşı kimi mühasirəyə alınacaq. Düzdür, Rusiya hərbi cəhətdən qüdrətlidir. Gümrüdəki hərbi bazası isə Ermənistan ordusundan qat-qat zəifdir. Eyni zamanda, erməni ordusu, artıq rusiyayönlü hərbçilərdən təmizlənib, hakimiyyətə sadiq olmayan kadrlar qovulur. Ordu erməni hökumətinin nəzarətindədir. Terror təhlükəsi qaçılmazdır. Nikol Paşinyan Amerika xəfiyyə orqanları ilə birgə işləyir, onun təhlükəsizliyi qorunur. Paşinyan Rusiyanın Ermənistandan çıxarılması üçün ən mühüm fiqurdur. Bu gün Ermənistan-Azərbaycan arasında sülh müqaviləsi hazırdır və ona xeyir-duanı Azərbaycan verəcək. Azərbaycan desə ki, Ermənistandan bizə təhlükə yoxdur, Türkiyə Ermənistanla münasibətləri tənzimləyəcək. Bir neçə ildən sonra isə Ermənistanda Türkiyənin nüfuzu Rusiyadan 10 dəfə çox olacaq. Ermənilərdə türk musiqisinə, türk ədəbiyyatına böyük məhəbbət var.

***- Ermənistanda Gümrü şəhərinin Rusiyaya birləşdirilməsi ilə bağlı iddialar var. Moskvanın belə planları varmı? Bunlar gerçəkləşə bilərmi?***

- Hamısı cəfəngiyatdır. Rusiyanın Ermənistan ərazisinə iddiası yoxdur. Ermənistan Moskvanın onu idarə etməsini istəmir. Eyni zamanda, Rusiya ilə əlaqələri tam kəsmək istəmir. Bu iki dövlət arasında siyasi, mədəni, iqtisadi əlaqələr, bağlantılar var. Sadəcə, Rusiya rəhbərliyi böyük qardaş sindromundan xilas olmalıdır.

***✍ Tahirə Qafarlı***

## Təşəbbüs

***Fransanın neokolonial siyasətinin Azərbaycan tərəfindən hərtərəfli ifşası və bu siyasətin iflasa uğraması istiqamətində göstərilən səylər davam edir. Qeyd edək ki, son illərdə Paris erməni kartından istifadə edərək, Cənubi Qafqaz bölgəsində vəziyyəti gərginləşdirmək, özünün müstəmləkə siyasətini yaymaq üçün zəmin hazırlamağa səy göstərir. Təbii ki, bu məsələdə əsas «rol» Ermənistanın üzərinə düşür. Bu siyasətə cavab olaraq, Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini əsas tutaraq, fransız müstəmləkəçiliyindən əziyyət çəkən koloniyalara özünün həm mənəvi, həm də siyasi dəstəyini verir.***

# Fransız neokolonializminin ifşası davam etdirilməlidir

Bakı Təşəbbüs Qrupu Beynəlxalq Ədalət Məhkəməsində Kanaki - Yeni Kaledoniyaya dəstək verəcək. Bu barədə təşkilatın təşəbbüsü ilə Türkiyənin İstanbul şəhərində keçirilən «Dekolonizasiya: intibahın oyanışı» mövzusunda beynəlxalq konfransın yekunlarına dair yayılan kommünikedə bildirilib.

Qeyd olunur ki, Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil edilmiş tədbir çərçivəsində Kanaki - Yeni Kaledoniyanın müstəqillik tərəfdarları və millətçilərdən ibarət nümayəndə heyəti fevralın 24-də Türkiyənin İstanbul şəhərində toplaşıblar: "Xatırladaq ki, 2023-cü ildə beynəlxalq qeyri-hökumət təşkilatı kimi yaradılmış Bakı Təşəbbüs Qrupunun əsas məqsədi kolonializm və neokolonializmə qarşı mübarizəni dəstəkləməkdir".



Bakı Təşəbbüs Qrupunun kommünikesində bildirilir ki, İstanbul konfransı bir tərəfdən, kolonializmdən əziyyət çəkən xalqlarla həmrəyliyin nümayiş etdirilməsinə töhfə verdi, digər tərəfdən, Fransanın kolonial gücünə qarşı mübarizə aparmaq məqsədi daşıyan siyasi fəaliyyət çərçivəsinin təsis edilməsinə imkan yaratdı. Həmçinin vurğulanır ki, Fransanın müstəmləkəçilik siyasətindən əziyyət çəkən ölkələrin nümayəndələrinin, eləcə də BMT-nin ixtisaslaşmış institutlarının iştirak etdiyi konfransda Kanaki - Yeni Kaledoniyadan olan nümayəndə heyəti Fransa hökumətinin təşkil etdiyi kütləvi miqrasiyanı öz daxili qanunlarına uyğun olaraq qanuniləşdirmək üçün Emmanuel Makron hökumətinin atdığı addımlara qarşı, xüsusən də seçici kütləsinin sayını artırmağa hesablanmış addımları qınadığını bəyan edib. "Bakı Təşəbbüs Qrupu Kanaki - Yeni Kaledoniyanın siyasi tarixinin böhran yaşanan bu dövründə ona dəstək verdiyini təkrar nümayiş etdirdi, regional və beynəlxalq təşkilatlarda, xüsusilə də Beynəlxalq Ədalət Məhkəməsi səviyyəsində fəaliyyətini davam etdirəcəyini bildirdi". Bakı Təşəbbüs Qrupunun səyləri kolonializm və neokolonializmdən əziyyət çəkən xalqların nümayəndələri tərəfindən də alqışlanır.

> *Fransanın neokolonialist siyasəti daim özünü mərkəz güc olaraq saxlamağa yönəlib*
>
> *Biz Fransanın Yeni Kaledoniya, Korsikada xalqın öz dilində danışmaq üçün apardığı mübarizəsini necə yatırtmaq istədiyini müşahidə etməkdəyik*

Kanak xalqı ölkəsini bizlərlə - katorqaya göndərilən avropalılarla paylaşır və bizlər də onlarla bərabər müstəqillik arzusundayıq. Müstəmləkə dövlətinin zülmündən, boyunduruğundan azad olmaq istəyirik. Onilliklərlə ölkəmizi ən pis vəziyyətə salıblar. Müstəqilliyimizi bərpa etməklə ölkəmizin təbii ehtiyatlarına, zənginliklərinə yiyələnə bilərik. Bununla da daha yaxşı sosial həyat səviyyəsinin və burada yaşayan etnik qruplar arasında tarazlığın yaradılmasına töhfə verə bilərik. Bu fikirləri AZƏRTAC-a açıqlamasında yenikaledoniyalı parlamentari Korto Rober söyləyib.

"1853-cü ildə avropalılar Kaledoniyaya gəliblər və o vaxtdan da bu torpaqlarda yaşayırlar. Onlar kaldoş, yəni, yerli əhalidir", - deyən parlamentari əlavə edib ki, 170 il əvvəl kanak xalqı onları mehribanlıqla qarşılayıb. Korto Rober, həmçinin qeyd edib: "Bu gün kanak xalqı bu ölkəni bizimlə paylaşır, biz yerli əhali hesab olunuruq. Onlarla bərabər, biz də müstəqillik arzulayırıq". Vurğulanıb ki, kanak və kaldoş xalqları Fransa hökumətinin yeni müstəmləkəçilik siyasətinə qarşı birlikdə mübarizə apara bilərlər. Məhz bu məqsədlə onlar Fransa dövlətinin Yeni Kaledoniyanı yenidən müstəmləkəyə çevirmək, kanak xalqını əsarət altına almaq siyasətinə etirazlarını bildirir, konfranslar keçirərək maarifləndirmə aparırlar. Bizim hərəkat Yeni Kaledoniyanın fransız müstəmləkəçiliyindən azad olunması və müstəqilliyin əldə edilməsi uğrunda mübarizə aparır. Bu gün mən ilk dəfədir ki, Bakı Təşəbbüs Qrupu tərəfindən təşkil olunan tədbirdə iştirak edirəm. Buna görə Azərbaycana və Bakı Təşəbbüs Qrupuna təşəkkürümü ifadə etmək istəyirəm. Bu qrup sayəsində Yeni Kaledoniya öz problemini Sakit okean regionunda beynəlmiləlləşdirə bilib. Qrupun fəaliyyətinin bundan sonra daha uğurlu olacağına inanıram.

Bu sözləri isə Yeni Kaledoniyanın Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) fəalı Robert Kurto söyləyib. O deyib: "Bakı Təşəbbüs Qrupu tərəfindən İstanbulda keçirilən "Dekolonizasiya: intibah dövrünün başlanğıcı" mövzusunda beynəlxalq konfrans vasitəsilə biz ölkəmizlə yanaşı, Fransa müstəmləkəçiliyinə məruz qalan bir çox başqa ərazilərin də olduğunu öyrəndik. Bizim bu ölkələrlə mübarizəmiz eynidir. Bu kontekstdə bizim üçün yaratdıqları bu platformaya görə həm Azərbaycana, həm də Bakı Təşəbbüs Qrupuna bir daha minnətdarlığımı ifadə edirəm".

Azərbaycanda da ictimai-siyasi fikir fransız müstəmləkəçiliyinin ifşası prosesinin davamlı xarakter almasından yanadır. "Fransanın regionla bağlı neokolonialist siyasəti bölgəni nəzarətdə saxlamaq iddiası ilə bağlıdır. Yeni qurulan dünya düzənində Şərqdən Avropaya qədər uzanan mühüm layihələrdən kənarda qalan Fransa, Avropa Biriyinin bəzi dövlətləri Ermənistanı bölgədə gərginlik yaratmağa təhrik etmək üçün əllərindən gələni edir, revanşist qüvvələri silahlandırırlar".

■ **Bunu hafta.az-a politoloq Rauf Məmmədov Fransanın neokolonializm siyasətinin ifşası və onun nəticələri barədə açıqlamasında bildirib.** R.Məmmədov hesab edir ki, geniş müzakirə olunan COP29 konfransı, Fransanın bölgədə mülki missiya ilə oynadığı rol, Ermənistanı silahlandırması, ABŞ kimi beynəlxalq qlobal güclərin bir çox hallarda qərəzli çıxışları, Çindən Avropaya gedən Orta Dəhliz, keçmiş İpək yolu uğrunda qrupların apardığı siyasətlə bağlıdır. "Fransanın neokolonialist siyasəti daim özünü mərkəz güc olaraq saxlamağa yönəlib. Fransa nəinki Avropaya, bütün dünyaya nəzarəti ələ keçirmək üçün müstəmləkə siyasətini yeni dünya düzəninə görə düzənləmək istəyir. Şərqdən Avropaya gedən əsas logistik xətlərin üzərindən keçən Azərbaycanın hazırkı reallıqda tutduğu mövqe və gücü Fransanın bu məqsədlərinin qarşısını alır. Fransanın hazırda Ermənistan üzərindən həyata keçirmək istədiyi neokolonial siyasət ifşa olunur". R.Məmmədov hesab edir ki, Fransa öz məqsədinə çatmaq üçün cəhdlərini davam edəcək. Ona görə də Azərbaycan və onunla birlikdə eyni ideoloji kursu daşıyan dövlətlər öz sözünü deyir və deməlidir.

■ **"Fransanın imperialist siyasəti Azərbaycanın Bakı Təşəbbüs Qrupu ilə Qoşulmama Hərəkatı müstəvisində ifşa edilməkdədir". Bunu isə siyasi şərhçi Məhəmməd Əsədullazadə Fransanin neokolonializm siyasətinin ifşası, Baki təşəbbüsü və onun nəticələri barədə açıqlamasında bildirib.**

M.Əsədullazadə qeyd edir ki, Fransanın neokolonializm siyasəti XXI əsrdə yeni bir müstəviyə keçib. Fransa, demək olar ki, XVIII-XX əsrdə həyata keçirdiyi neokolonializm siyasətini qloballaşan, beynəlxalq hüququn hakim olduğu dünyada da aparmağa çalışır. "Biz bunu Afrikada, Yaxın Şərqdə, Cənubi Qafqazda görə bilirik. Fransanın Ermənistana hərbi dəstəyinin altında məhz Ermənistanı müstəmləkəyə çevirib o bölgədən müharibələr yaratmaq üçün istifadə etmək dayanır". M.Əsədullazadə Fransanın apardığı neokolonialist siyasətin bir çox ada dövlətlərdə etirazlarla qarşılandığını deyib.

"Biz Fransanın Yeni Kaledoniya, Korsikada xalqın öz dilində danışmaq üçün apardığı mübarizəsini necə yatırtmaq istədiyini müşahidə etməkdəyik. Fransanın bu imperialist siyasəti Azərbaycanın Bakı Təşəbbüs Qrupu ilə Qoşulmama Hərəkatı müstəvisində ifşa edilməkdədir. Azərbaycanın bu kontekstdə keçirdiyi tədbirlər, BMT müstəvisinə qaldırması Fransanın beynəlxalq aləmdə imperialist siyasətinin ifşa edilməsinə gətirib çıxarıb. Azərbaycan həm Korsika, həm Yeni Kaledoniya xalqının öz müqəddəratını təyin etməsini dəstəkləyir, həm də həmin xalqların Fransa tərəfindən zorakılığa məruz qaldığını pisləyir. Azərbaycan XXI əsrdə Fransa neokolonializminə qarşı mübarizə aparan əsas ölkədir. Bakı Təşəbbüs Qrupu, demək olar ki, Fransaya qarşı beynəlxalq etirazın formalaşmasına, həmçinin onun müstəmləkəsi olan dövlətlərdə etirazın formalaşmasına gətirib çıxardı. Azərbaycan XXI əsrdə Fransa imperializminə qarşı kəskin mübarizə aparır, rəsmi Parisin bu siyasətini ifşa edir".

***✍ Tahirə***

# Yaşıl enerjiyə ən çox investisiya qoyan ölkə

## Layihə

***Azərbaycanda, təxminən, 9 ay sonra hər il fərqli bir ölkənin ev sahibliyi etdiyi 29-cu "Tərəflərin Konfransı" (COP) baş tutacaq. Belə ki, sözügedən tədbir bu il noyabrın 11-dən 24-dək Bakıda keçiriləcək. Hazırda Azərbaycanda bu tədbirə ciddi hazırlıq prosesi gedir. Qeyd edək ki, COP29 iqlim fəaliyyətini sürətləndirmək və Paris sazişinin məqsədlərinə nail olmaq üçün keçirilən tarixi görüş hesab olunur.***




Bu görüşlər iqlim dəyişikliyi ilə mübarizədə əldə edilmiş tərəqqini qiymətləndirmək və 1990-cı illərin ortalarından etibarən inkişaf etmiş ölkələr üçün istixana qazı emissiyalarını azaltmaq üçün hüquqi cəhətdən məcburi öhdəliklər qoyan Kioto Protokolunu müzakirə etmək üçün UNFCCC tərəflərinin - Tərəflər Konfransının (COP) rəsmi görüşü kimi xidmət edir. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da (Tərəflər Konfransı) toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində birgə səylər göstərir.

Xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının ilk tədbiri 1995-ci ilin martında Berlində, sonuncusu - 28-ci sessiyası (COP28) isə 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilib. Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi ilə bağlı qərar COP28-in ötən il dekabrın 11-də Dubayda keçirilmiş plenar iclasında qəbul olunub. Bu, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır, ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Bakı iki həftə ərzində dünyanın mərkəzi olacaq və şəhər təqribən 70-80 min xarici qonağı qarşılayacaq.

COP29-un Azərbaycanda keçirilməsi, ilk növbədə, BMT tərəfindən Azərbaycanın iqlim məsələsində üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsinin etirafıdır. Bundan əlavə, COP29-un Azərbaycanda keçirilməsi BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasından xəbər verir. COP29-un Bakıda keçirilməsi həm də Azərbaycanın yaşıl enerji siyasətinə qlobal dəstəyini ifadə edir. Buna uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Neft-qaz ölkəsi olan Azərbaycan yaşıl enerji növlərinin yaradılmasını və yaşıl enerjinin dünya bazarlarına nəqlini hazırda enerji siyasətinin yeni prioritet istiqaməti kimi müəyyən edib.

Bərpaolunan və yaşıl enerji əsasında istehsal edilən elektrikin ixracı Azərbaycanın enerji strategiyasında yeni eranın başlanmasına səbəb olub. Azərbaycanın bərpaolunan enerji potensialı çox yüksəkdir. 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının Azərbaycanda 30 faizə çatdırılması gözlənilir. Statistik göstəricilərə görə, ölkəmizin bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qiqavatdır. Bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 qiqavat, o cümlədən külək enerjisi üzrə 3 min meqavat, günəş enerjisi üzrə 23 min meqavat, bioenerji potensialı 380 meqavatdır. Dağ çaylarının potensialı 520 meqavat həcmində qiymətləndirilir.



**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

■ **Məsələ ilə bağlı AMEA-nın müxbir üzvü, Radiasiya Problemləri İnstitutunun baş direktoru İslam Mustafayev bizimlə söhbətində deyib ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycanda keçirilməsi haqqında qəbul edilən qərar çox mühüm hadisədir:** "Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir. Bu maraq, hörmət, etimad 2023-cü ilin dekabrında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 28-ci sessiyası çərçivəsində ilk dəfə öz pavilyonu ilə çıxış edən Azərbaycana göstərilən diqqətlə də özünü büruzə verdi. Mən həmin tədbirdə iştirak etmişdim və Azərbaycan pavilyonuna böyük marağın şahidi olmuşdum. İndi biz bu tədbirə ciddi şəkildə hazırlaşırıq. Bu tədbir Azərbaycana imkan yaradacaq ki, 30 illik işğal dövründə ermənilər tərəfindən törədilmiş ekoloji terroru dünya ictimaiyyətinə yaxından çatdıra bilsin. Azərbaycan ərazilərinin 30 illik işğal dövründə həmin torpaqlarımızda ekologiyamız, biomüxtəliflik, yaşıllıqlar vəhşicəsinə məhv edilib, yandırılıb, təbii sərvətlərimiz talanıb. Azərbaycan ərazilərində törədilən ekoloji terror, əhalinin sudan

*"Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir*

məhrum edilməsi, transsərhəd çayların qabağının alınması və çirkləndirilməsi, su anbarlarının baxımsızlıqdan qəza vəziyyətinə düşməsi ilə ətrafdakı yaşayış məntəqələri və yüz minlərlə əhalinin təhlükə altında qalması Ermənistanın ölkəmizə qarşı törətdiyi təcavüzdür". İ.Mustafayev, həmçinin qeyd edib ki, Azərbaycan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Eyni zamanda, 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Azərbaycan 1990-cı baza ili ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz, 2050-ci ilə qədər 40 faiz azaldılmasını hədəf kimi götürüb. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Bu ərazilərdə yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin digər dünya ölkələrinə nəqli Azərbaycanın hədəf götürdüyü enerji siyasətinin prioritetidir".

■ **Mövzu ilə bağlı "Avrasiya miqrasiya təşəbbüsləri platforması" İctimai Birliyinin sədri Azər Allahverənov bildirib ki, COP29 bir çox göstəricilərinə görə kifayət qədər yüksək səviyyəli tədbir hesab olunur:** "Xüsusilə ətraf mühitin mühafizəsi, ekologiya, yaşıl enerji sahələrində ixtisaslaşan qurumların təmsilçilərinin qatıldığı mötəbər tədbirdə hər bir dövlətin özünəməxsus formada pavilyonu olur. İqlim dəyişmələrinə həsr edilmiş sonuncu COP28 konfransı bizim üçün həm də ona görə əlamətdar oldu ki, orada növbəti tədbirin 2024-cü ildə məhz Azərbaycanda keçirilməsi ilə bağlı çox ciddi qərar qəbul olundu". Onun sözlərinə görə, konfrans həm siyasi, həm enerji sektorunun, həm də miqrasiya sahələrinin inkişafı nöqteyi-nəzərindən çox vacib tədbirdir: "İqlim dəyişmələri ilə bağlı konfransların, sessiyaların keçirildiyi dövlətlərdə sonrakı mərhələlərdə məhz həmin sahələrdə çox ciddi irəliləyişlərin olduğunu müşahidə edirik. BMT-nin böyük güclərini özündə ehtiva edən dövlətlərin təmsil olunduğu konfrans qərar verən tərəflərin həmin tədbirin keçiriləcəyi şəhərə və ya dövlətə göstərdiyi etimadın bariz nümunəsidir. Yəni, Azərbaycanla bağlı BMT səviyyəsində mövcud olan etibarlı tərəfdaş mövqeyi ölkəmizin kifayət qədər siyasi nüfuzundan irəli gələrək hörmət əsasında formalaşır. Azərbaycanın digər qurumlarda və ya təşkilatlarda təmsilçiliyini, xüsusilə də Qoşulmama Hərəkatını buna nümunə olaraq göstərə bilərik. Ölkəmizin bu təşkilata sədrliyi əvvəlcə üç il olmuşdu. Sonra Azərbaycanın rolunu nəzərə alaraq müddət bir il də artırılmışdı. BMT-nin say etibarilə ikinci nüfuz sahibi olan platformasında Azərbaycanın rəhbər orqanlarında təmsil olunması ölkəmizə olan rəğbətdən qaynaqlanan mövqedir. Bu, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Həmin tədbirin respublikamızda keçirilməsinə qərar verilməsi böyük etimadın göstəricisi olmaqla, ölkəmizin qlobal problemlərin həllində məsuliyyətli və etibarlı tərəfdaş mövqeyini təsdiqləyir".

Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladan A.Allahverənov bildirib ki, bu sənəddə Azərbaycanın energetika sahəsində, xüsusilə də sosial-iqtisadi inkişafın beş milli prioritetlərdən biri hesab olunan təmiz ətraf mühit və yaşıllıqların artırılmasına dair fəaliyyətlərə nəzər salınır: "Xüsusilə də həmin innovativ yanaşmalarla bağlı olan məsələlərə işğaldan azad olunmuş ərazilərdə "Ağıllı şəhər", "Ağıllı kənd" və digər layihələr aiddir".

■ **Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov da hesab edir ki, COP29-un Azərbaycanda keçirilməsi kifayət qədər əlamətdar bir hadisədir:**

"Əvvəla COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha təsdiq edir ki, ölkəmizin bu sahədəki fəaliyyəti BMT daxil olmaqla, beynəlxalq və qlobal təşkilatlar tərəfindən yüksək qiymətləndirilib. Məhz bu səbəbdən də Azərbaycanın namizədliyi dəstək olunub və təsdiqlənib. Nəzərə çatdırım ki, Azərbaycan regionda yaşıl enerjinin inkişafına ən çox investisiya edən ölkələrdən biridir. Son illər bu sahəyə yönəlmiş sərmayələrin həcmi 1 milyard dollardan artıqdır. COP29 bir sıra istiqamətlərdə - Azərbaycanın iqtisadiyyatı, eyni zamanda, Azərbaycanın yaşıl enerji sahəsində həyata keçirdiyi fəaliyyətlərin təqdimatı baxımından da çox vacibdir".

***✍ Sevinc***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib

***Fevralın 28-də Rusiyanın Stavropol diyarının Mineralnıe Vodı şəhərində 12-ci Azərbaycan-Rusiya Regionlararası Forumu keçirilib. Nazirlər Kabinetindən bildirilkib ki, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin və Rusiyanın İqtisadi İnkişaf Nazirliyinin təşkilatçılığı ilə keçirilən Forumda Azərbaycan və Rusiya tərəfdən dövlət qurumlarının, parlamentlərin, icra hakimiyyəti orqanlarının nümayəndələri, iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlar və mətbuat işçiləri iştirak ediblər.***



Forumun yekununda keçirilən plenar iclasda Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Vladimir Putinin forum iştirakçılarına müraciətləri oxunub.

Azərbaycan Respublikasının Prezidentinin müraciətində qeyd olunub ki, qarşılıqlı hörmət və etimada əsaslanan tərəfdaşlığımız praktik olaraq bütün sferaları əhatə edir. Belə formatlarda Regionlararası forumlar özünün effektivliyini sübut edib. Bu gün ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlıq inkişaf edir, əmtəə dövriyyəsi artır, yeni istiqamətlər üzrə iş aparılır. Forum çərçivəsində nəqliyyat-logistika, sənaye, kənd təsərrüfatı və ekoloji sahələrdə əməkdaşlığın nəzərdə tutulması iki ölkənin regionlararası səviyyədə daha dərin əlaqələrə can atdığını göstərir.

İclasda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev qeyd edib ki, Azərbaycan-Rusiya əlaqələri qarşılıqlı hörmət, mehriban qonşuluq prinsiplərinə əsaslanır və strateji tərəfdaşlıq səviyyəsindədir. Dövlətlərimizin başçıları ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin inkişafına böyük önəm verdiyini və onların həlledici təşəbbüsləri forumun mötəbər platformaya çevirərək ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində mühüm rol oynadığını bildirib. Cari ilin 22 yanvar tarixində imzalanmış "2024-2026-cı illər üçün əməkdaşlığın əsas istiqamətlərinin inkişafı üzrə Yol Xəritəsi"nin vacibliyini vurğulayaraq, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa töhfə verəcəyini xüsusilə qeyd edib.

Diqqətə çatdırılıb ki, Rusiya Azərbaycanın mühüm ticarət tərəfdaşlarından biridir və qeyri-neft məhsullarımızın ixracında birinci yerdədir. 2023-cü ildə Rusiya ilə ticarət dövriyyəsi 17,5% artaraq 4,4 milyard dollara çatmışdır. Həmçinin investisiya sahəsində əməkdaşlığı xüsusilə qeyd edərək Azərbaycanda Rusiyanın iştirakı ilə böyük investisiya layihələrinin həyata keçirildiyi bildirilib. Ötən il ölkələrimiz arasında ikitərəfli yükdaşımaların ümumi həcmi 11 faizdən çox artdığını bildirərək ikitərəfli əməkdaşlığımızın uğurla inkişaf edən və perspektivli sahəsi olan nəqliyyat və tranzit daşımalar sahəsindən danışıb.

Bildirilib ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi ölkələrimizin əraziləri vasitəsilə Cənubi Asiyadan Avropaya yüklərin daşınması üçün optimal imkanların yaradılmasına yönəlib və 2023-cü ildə dəhlizlə yükdaşımaların həcmi təxminən 17% artıb. Qısa müddət ərzində Dağıstan Respublikası, Tatarıstan Respublikası, Başqırdıstan Respublikası, Udmurt Respublikası, Həştərxan vilayəti, Perm diyarı, Ryazan vilayəti və Rusiya Federasiyasının digər subyektləri ilə qarşılıqlı səfərlər həyata keçirilmişdir.

Azərbaycan Rusiyanın 80-ə yaxın subyekti ilə iqtisadi və humanitar sahələrdə mühüm əlaqələr qurub, 20 subyektlə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə qarşılıqlı fəaliyyətə dair sənədlər imzalanıb.

Forum çərçivəsində Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ilə Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk arasında keçirilmiş görüşdə ölkələrimiz arasında birgə layihələrin həyata keçirilməsi, regionlararası əməkdaşlığın dərinləşdirilməsi potensialı və başqa aktual məsələlər barədə fikir mübadiləsi aparılmışdır.

## XƏBƏRİNİZ OLSUN...



■ 2023-cü il ərzində daxili işlər orqanlarına erkən nikahla bağlı 50 müraciət daxil olub. Bunu Daxili İşlər Nazirliyinin xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektoru Emin Nəsirli jurnalistlərə açıqlamasında bildirib. Onun sözlərinə görə, bu müraciətlərdən 20 fakt üzrə cinayət işi başlanıb.

---

■ Bu il son 10 il ərzində yaxşı göstəricilərlə üzləşdik. Böyük Qafqazın çaylarında sululuq normadan 88 faiz çoxdur. Keçən illə müqayisədə isə 38 faiz çoxdur. Kiçik Qafqaz çaylarında isə sululuq norma göstəricilərdən 35 faiz artıqdır. Bunu Ekologiya və təbii sərvətlər nazirinin müavini Umayra Tağıyeva bildirib.

---

■ "Mançester Siti"nin futbolçusu Erlinq Haland penta-trikə imza atıb. Norveçli hücumçu İngiltərə kubokunun 1/8 finalında "Luton"un qapısına 5 qol vurub. Haland son 1970-ci ildən sonra bunu bacaran ilk futbolçudur.

---



■ Kişi voleybolçulardan ibarət Azərbaycan millisinin yeni baş məşqçisi bəlli olub. Yığmamızı yenidən Fərid Cəlalov çalışdıracaq. O, millimizin baş məşqçisi təyin olunub. Bu barədə qərarı Azərbaycan Voleybol Federasiyası verib. O, bu postda Pərviz Səmədovu əzəvləyib.

---

■ Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən il ərzində 30-40 erkən nikah halının qarşısı alınır. Bunu jurnalistlərə açıqlamasında Komitənin Hüquqi-Təminat şöbəsinin müdiri Taliyə İbrahimova bildirib. Onun sözlərinə görə, eyni zamanda, yerli icra hakimiyyəti orqanlarından da məlumatları sorğu edirlər.

---

■ Makronun Qərb quru qüvvələrinin Ukraynaya mümkün göndərilməsi ilə bağlı bəyanatı Fransa üçün biabırçılıqdır. Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

---



■ Aleksey Navalnının ölümünün arxasında Ukrayna ola bilər. Belə bir iddia ilə amerikalı jurnalist Taker Karlson çıxış edib. "Onlar Duginin qızını öldürüblər. Bəli, bu mümkündür", - Karlson bildirib.

---

■ Fransa prokurorluğu 88 yaşlı aktyor Alen Delonun villasından ələ keçirilən silahlarla bağlı araşdırmalara başlayıb. Jandarmlar Alen Delonun Duşidəki villasından 72 odlu silah və 3 mindən çox patron ələ keçirib.

## Müsahib

# Biz hərtərəfli qalib olduq



**Tacəddin Mehdiyev,**
Azərbaycanın sabiq müdafiə naziri, general-mayor

***Azərbaycanın sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyevlə hafta.az üçün budəfəki söhbətimizdə Xocalı soyqırımının qisasının alınması, Rusiyanın artıq 3 il 3 aydan çoxdur ki, Azərbaycanın Yuxarı Qarabağ torpaqlarında qalan "sülhməramlı" adlanan hərbi kontingentinin bundan sonrakı taleyi, Ermənistanla sərhəddəki son gərginlik və Rusiya-Ukrayna cəbhəsində son baş verənlər haqqında danışdıq.***

***- Xocalı soyqırımı ilə yanaşı, digər faciə və işğalların baş verdiyi I Qarabağ savaşının ən ağır günlərini yüksəkrütbəli və vəzifəli hərbçi kimi yaşamış biri olaraq necə düşünürsüz, bu gün artıq ürəklə deyə bilərikmi ki, artıq 32-ci ildönümü tamamlanan Xocalı soyqırımının qisasını tam almışıq?***

- Düşmənimizdən Xocalı soyqırımının da, digər faciə, işğal və itkilərimizin də qisasını almışıq, amma bircə narahatedici məqam var. Hesab edirəm, bizim Qarabağda, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı tam, qəti və yekun qələbəmiz Rusiyanın "sülhməramlı" adlanan qoşunlarının torpaqlarımızda qalma müddəti başa çatdıqdan və onların ayağı suveren ərazimizdən birdəfəlik çəkildikdən sonra baş verəcək. Onda bir xalq olaraq ürəyimiz də tam soyuyacaq, qəlbimiz rahatlayacaq. Mövcud şəraitdə məsələyə daha geniş beynəlxalq durum və xalqımızın, dövlətimizin bugünkü və gələcək varlığı prizmasından yanaşdıqda belə nəticəyə gəlirik ki, bəli, dediyim kimi, Xocalı və digər faciələrimizin də qisası alınıb və ən əsası, xalqımızın inamı və şərəfi özünə qaytarılıb. Xocalı kimi, işğal altındakı digər şəhər və kəndlərimiz də erməni işğalçı və separatçılarından azad edilərək, ordumuzun, dövlətimizin nəzarət və yurisdiksiyasına qaytarılıb. Bununla bütün dünya bir daha əmin oldu ki, Azərbaycan xalqı torpağını sevən, namuslu, qeyrətli və döyüşkən xalqdır...

Yadımdadır ki, 1991-1992-ci illərdə bircə tabor formalaşdırmaq çox böyük çətinliklərlə mümkün olurdu. Həm də ona görə ki, orduya çağırılanların xeyli hissəsi qaçırdı, fərarilik edirdi. Lakin 44 günlük Vətən müharibəsində on minlərlə oğul-qızımız könüllü olaraq döyüşə yollanmaq məqsədilə çağırış komissiyalarına axışdı. O səbəbdən ki, Azərbaycan xalqının öz mənliyini, şərəfini, qürurunu bərpa etmək istəyi, əzmi o qədər güclü idi ki, onun qarşısını almaq qeyri-mümkün idi. Bu gücün, iradənin önündə nəinki Ermənistan, istənilən digər dövlət də tab gətirə bilməzdi...

***- Rusiya 4-cü ildir, Yuxarı Qarabağ ərazisində "sülhməramlı" adı ilə fəaliyyət göstərən qoşunlarını 2025-ci ildən sonra da Azərbaycan ərazisində başqa bir statusla saxlamağa çalışacaqmı?***

- Moskva öz hərbi qüvvəsini Qarabağda, yəni Azərbaycanda, Cənubi Qafqazın Ermənistan və Gürcüstandan savayı daha bir strateji məkanında uzun müddət saxlamağa çalışacaq. Ermənistan kimi Rusiyadan tam asılı vəziyyətdə olan kiçik bir dövlət bu imperiyadan tam qopmağa çalışırsa, KTMT-də fəaliyyətini dondurduğunu bəyan edirsə, Kremlin də Azərbaycanla müttəfiqlik münasibətlərindən istifadə edib öz qoşunlarını keçmiş Dağlıq Qarabağ ərazisində saxlamağa çalışması təbiidir. Belə getsə, Paşinyan Rusiyanın 102-ci bazasının Gümrüdən çıxarılması məsələsini də qoyacaq. Fransanın öz ordusunu Gümrüyə yerləşdirəcəyi haqqında informasiyalar dolaşır...

Ruslar sağ olsunlar, Yuxarı Qarabağın erməni işğalından tam azad olunmasında, oradakı separatçı-terrorçu rejimin kökünün kəsilməsində, həmin rejimin bir sıra əsas liderlərinin tutulub Bakıya gətirilməsində və s. bizə mane olmadılar. Təbii ki, öz maraqları xatirinə. Rusiya hesab edir ki, Qarabağda öz milli və dövlət maraqlarına uyğun olaraq öz niyyətini həyata keçirdi, biz də milli və dövlət maraqlarımıza uyğun olaraq öz məqsədlərimizi icra etdik və bunları davam edirik. Düzdür, Rusiya ordusunun Azərbaycan ərazisində qalması dünyanın demokratik sayılan əksər hissəsinin bizə qarşı çıxmasına səbəb olur. Xüsusən son aylar Qərbin, ABŞ-ın, Avropa Şurasının, Avropa Parlamentinin və s. Azərbaycana qarşı təpkilər göstərməsi də məhz bununla bağlıdır. Bizim üçün əsas öz dövlət maraqlarımızdır. Onsuz da Ukraynaya ədalətsiz və amansız təcavüzündən, bu Avropa ölkəsinin ərazisində iki il ərzində apardığı işğalçı siyasətin üzə çıxmasından sonra Rusiya ilə yaxınlıq edən bir çox ölkələr ondan uzaqlaşmağa çalışırlar. Məsələn, son vaxtlar Türkiyə də, Çin də bu imperiyadan uzaqlaşmağa başlayıb. Hələlik mən də hesab edirəm, Rusiya hərbi qüvvələrinin Azərbaycan ərazisində qalması hazırkı vəziyyətdə bizə sərf edir. Moskva öz qoşunlarını Qarabağdan çıxaran kimi Avropa dövlətləri, xüsusən də Fransa öz hərbi birləşmələrini oraya yerləşdirməyə cəhd göstərəcək. Rusiya ordusunun Qarabağda qalması onların bu addımlarının qarşısını alır...

***- Ermənistanla şərti dövlət sərhədinin Zəngilan hissəsindən başlanmış son gərginliyə münasibətiniz necədir? Bir çox hərbi ekspert və siyasi şərhçilər bunun Avropa, Fransa tərəfindən təşkil olunduğunu iddia edirlər. Güney Qafqazda, xüsusən də Ermənistanda Rusiyanın dayaqları Qərbinkindən, o cümlədən Fransanınkından qat-qat güclüdür. Özü də son atəşkəs pozuntuları əsasən Ermənistan-Azərbaycan şərti sərhədinin Rusiya hərbçilərinin dayandığı hissələrində baş verir...***

- Sərhəddəki son atəşkəs pozuntularında Ermənistan daxilindəki müxtəlif revanşist qüvvələr də, xüsusən I Qarabağ müharibəsindən bəri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etmiş və biabırcasına məğlubiyyətə düçar olmuş hərbi qruplaşmalar da maraqlı ola bilər. Bunlardan biri də məhz Zəngilan yaxınlığındakı atəşkəs pozuntusunu təşkil etmiş terrorçu "Yerkrapa" birləşməsidir. Onu da deyim ki, Ermənistan bundan sonra nə qədər çalışsa da, lap 10 il ərzində güc, texnika toplasa da, Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməz. Bundan sonra revanşist, irqçi erməni dairələrinin yenidən Azərbaycan ərazilərini işğal etmək, Yuxarı Qarabağı geri qaytarmaq planları boş və mənasız xülyadan başqa bir şey olmayacaq. Azərbaycan Ordusu artıq son illərdə bir daha böyük döyüş təcrübəsi toplayaraq müasir hərbi əməliyyatları yüksək səviyyədə aparacaq dərəcədə güclənib və getdikcə daha müasir texnika və texnologiyalarla silahlanmaqdadır.

> *Azərbaycan xalqının öz mənliyini, şərəfini, qürurunu bərpa etmək istəyi, əzmi o qədər güclü idi ki, onun qarşısını almaq qeyri-mümkün idi*

Eyni zamanda Azərbaycan Silahlı Qüvvələrinin döyüş ruhu da bir qalib ordu kimi Ermənistanınkından dəfələrlə yüksəkdir... Bundan əlavə, Ermənistanın insan resursları və iqtisadiyyatı da Azərbaycanınkından qat-qat zəifdir. Hazırda bu ölkədə faktiki olaraq 1 milyon yarıma yaxın əhali var. Onlar 10 milyonun qarşısında nə edə bilər?.. Bir sözlə, biz hər cəhətdən Ermənistandan üstünük. Odur ki, hərdənbir sərhəddə atəşkəsin pozulmasına əhəmiyyət də vermək lazım deyil. Belə təxribatlarla Ermənistan və onun havadarları heç nəyə nail ola bilməyəcəklər. Bu cür əməllərin onların özlərinə ziyandan başqa heç bir faydası yoxdur...

***- Yəni hesab edirsiniz ki, hətta xaricdən də Ermənistana güclü dəstək verilsə, Azərbaycan qarşısında yenə də aciz qalacaq?***

- Fransa, Hindistan və başqaları kömək etsə, lap Rusiya yenidən Ermənistana dəstək versə, yenə də Azərbaycana uduzacaqlar. Bizim həm özümüz güclüyük, həm də dost və müttəfiqlərimiz. Türkiyə kimi qardaşımız, arxamız var, Türk Dövlətləri Birliyi yaranıb. Pakistan kimi dost və müttəfiqimiz var. İsrail də bizi dəstəkləyir. Hesab edirəm, dövlətimizin apardığı xarici siyasət, tamamilə düzgün bir siyasətdir.

Biz həm xarici siyasətdə, diplomatiyada Ermənistanı udduq, həm də daxildəki erməni separatçılığı problemini hərbi güc tətbiq etməklə həll etdik. Bir sözlə, hərtərəfli qalib olduq. Məsələ bitib artıq. Atalarımız demiş, daldan atılan daş topuğa dəyər. Bilirsiniz, artıq ermənilərin az- çox ağlı, biliyi, vicdanı olan ziyalıları, alimləri də öz saytlarında, telekanallarında danışmağa başlayıb ki, "bizim erməni xalqı xəstədir, onu "Böyük Ermənistan", "Artsax" xəstəliklərindən xilas etmək lazımdır..." Deyirlər ki, "bəsdir, bu biabırçılıqdan uzaqlaşın, qondarma "soyqırımı", "genosid" sözlərini unudun"...

***- Necə düşünürsünüz, hazırda Azərbaycan-Ermənistan sərhədində gərginlik yaranmasında daha çox hansı dövlətlər maraqlıdır: Qərb dövlətləri, Avropa, Fransa, yoxsa Rusiya?***

- Belə nəticəyə gəlirəm ki, bunda hər iki tərəf maraqlıdır: həm Qərb, həm də Rusiya... Hər tərəf Azərbaycan və Ermənistan üzərindən öz maraq və məqsədlərini yönəltməyə çalışır...

***- Rusiyanın Ukraynaya genişmiqyaslı təcavüzünün ikinci ildönümü də tamam oldu. Son günlər cəbhədən gələn məlumatlar ilk baxışda elə təəssürat yaradır ki, Putin ordusu müharibədə kəskin dönüşə nail olub və bəzi ukraynalı ekspertlər də bunu Ukrayna ordusunun Baş Komandanı general Zalujnının Quru Qoşunları Komandanı Sırski ilə əvəzlənməsi ilə əlaqələndirirlər. Siz necə düşünürsünüz?***

- Bilirsiniz, general Zalujnı peşəkar hərbçidir. İki ilə yaxın müddətdə Rusiyanın canlı qüvvə və texnika sayına görə dəfələrlə üstün ordusuyla qeyri-bərabər döyüşdə Ukrayna ordusuna çox cəsur, qabiliyyətli və fədakar bir general kimi komandanlıq etdi. Onun yerinə təyin edilən Sırski də eyni müddətdə və ağır şəraitdə Quru Qoşunlarına komandanlıq edib. Buna görə də burada heç bir fəlakət yoxdur. Ukrayna ordusu, Ukrayna xalqı bundan sonra da var gücü ilə Rusiya ilə qələbəyədək mübarizə aparacaq. Görünür, ordu komandanlığındakı bu yerdəyişmələrdə Ukrayna rəhbərliyinin, Prezident Zelenskinin xüsusi məqsədi var. Əgər Zalujnı hansısa günahına, mənfi cəhətlərinə görə vəzifədən azad edilsəydi, Zelenski ona Ukrayna Milli Qəhrəmanı adını verməzdi. Hesab edirəm ki, o sadəcə yorulmuşdu. Rusiya kimi bir dövlətin ordusu ilə iki ilə yaxın müddətdə savaşa komandanlıq etmək asan məsələ deyil. Odur ki, inanıram, Ukraynada hər şey operativ əməliyyat şəraitinə uyğun olaraq öz qaydasında gedir...

***- Avdeyevkadan Ukrayna qoşunlarının geri çəkilməsini, eləcə də bu günlərdə Rusiya ordusunun Donetsk vilayətinin Lastoçkino və Robotino kəndlərinə daxil olmasını ölkə daxilində və xaricdəki bəzi ekspertlər böyük bir uğursuzluq kimi dəyərləndirirlər. Buna necə baxırsınız?***

- Bunların hamısı mənasız söhbətlərdir. Düzdür, Avdeyevka Donetsk şəhərinin cəmi 18 kilometrliyində yerləşən bir şəhər kimi strateji əhəmiyyətə malik olsa da, hazırda o, ruslar tərəfindən darmadağın edilib. Odur ki, onu oradakı Ukrayna döyüşçülərinin mühasirəyə düşməsi təhlükəsi altında əldə saxlamağın heç bir mənası yox idi. İkincisi, Avdeyevka uğrunda cəmi bir neçə aylıq döyüşdə Ukrayna hərbçiləri Rusiya ordusunu çox ağır itkilərə məruz qoydu.

Bəzi hesablamalara görə, bu rəqəm sovet-rus ordusunun on il ərzində Əfqanıstanda apardığı müharibədəki itkilərindən dəfələrlə çoxdur. İnşAllah, bir müddət sonra eşidəyəcəyik ki, Ukrayna ordusu yenidən Avdeyevkaya nəzarəti ələ keçirib. Digər kiçik yaşayış məntəqələrini isə Ukrayna ordusu operativ əməliyyat şəraitinə uyğun olaraq və öz ordusunu yersiz itkilərdən mümkün qədər qorumaq məqsədilə tərk edib və bunlar sadəcə taktiki addımlardır...

Ümumiyyətlə, hesab edirəm, Ukrayna hərbi-siyasi komandanlığı bu müharibəni Putin ordusunu tükəndirərək tam məğlubiyyətə vadar etmək prinsipi ilə aparır və bütün çətinliklərə rəğmən əgər ABŞ Konqresi Ukraynaya gözlənilən yardım məbləğini təsdiqləsə, ona yetərincə silah-sursat, raketlər "F-16"lar verilsə, Ukrayna Rusiya ordusunu öz ərazilərindən, o cümlədən Krımdan da çıxarmağa nail olacaq...

✍ ***Sultan Laçın***

## Aktual

***Ermənistanın Azərbaycanın Xocalı rayonu ərazisində törətdiyi soyqırımı hadisəsindən 32 il keçdi. İlk dəfə olaraq bu il fevral ayının 26-da Prezident İlham Əliyevin iştirakı ilə Anım Günü işğaldan azad olunan Xocalıda qeyd edildi. Ölkənin ali rəhbəri bu dəfə Xocalıda dünyanın böyük dövlətlərini ədalətli olmağa səsləyib. Xocalıda "Xocalıya Ədalət!" çağırışımızın bu günə qədər cavabsız qaldığını bildirən ölkə başçısı cəmi 18 ölkə tərəfindən bu qanlı faciənin soyqırımı kimi tanındığını, bu ölkələrin arasında böyük dövlətlərin adlarının olmadığını təəssüflə qeyd edib.***

**■ Politoloq Zaur Məmmədov ilk dəfə olaraq xankəndililərin, xocalılıların, ağdərəlilərin və digər işğaldan azad olunan ərazilərimizin insanlarının öz doğma torpaqlarında prezident seçkilərində iştirak etməsini, eyni zamanda müstəqil Azərbaycanın tarixində ilk dəfə xocalılıların Xocalı soyqırımını öz torpağında yad etməsini çox vacib amil kimi önə çəkdi.**

"1992-ci ildə Qarabağın ən qədim tarixinə malik olan Xocalıda baş verənlər ermənilərin törətdiyi ağır cinayət idi. Dünyanın əksər qlobal gücləri buna reaksiya vermədilər. Azərbaycan Ordusu özü həmin canilərin dərsini verdi. Xocalıların qanı yerdə qalmadı. Düşmən düşünürdü ki, o əraziləri daim tapdaq altında saxlayacaq. Prezidentin Xocalıda, ondan qabaq Xankəndidə çıxışı və inaqurasiyada qeyd etdikləri bu mənada çox mühüm məsələləri özündə əks etdirir. Bununla da erməni tərəfi bilməlidir ki, əgər Azərbaycan torpaqlarına göz dikəcəklərsə, mütləq şəkidə dərslərini alacaqlar".

**■ Siyasi şərhçi Vüqar Dadaşov bildirir ki, biz hər hədəfimizə çatmağı bacarırıq. Ekspert hesab edir ki, Xocalı soyqırımı daxil olmaqla Ermənistanın azərbaycanlılara**

# "Xocalıya Ədalət!" çağırışı

**■ Professor Qabil Hüseynli hafta.az-a bildirib ki, Prezidentin Xocalıda dediyi kimi, Ermənistan dövləti, onun arxasında duran qüvvələr, Xocalı soyqırımını ört-basdır edib məsuliyyətdən yaxa qurtarmağa çalışsa da, Azərbaycan Ordusu öz sözünü dedi.** Onun sözlərinə görə, torpaqları işğaldan azad edib özünün suverenliyini bərpa edən Azərbacan dövləti, xalqı Xocalının qisasını aldı. "Amma qisas başqa, haqq-ədalətin dünya tərəfindən görünməsi, cinayətkarın cəzalandırılması başqadır. İkinci Qarabağ

**qarşı törətdiyi insanlıq əleyhinə cinayətlərdə Ermənistan vətəndaşları ilə yanaşı, bütün Qarabağ ermənilərinin də iştirakı şübhəsizdir.** Onun sözlərinə görə, ötən ilin sentyabr ayında antiterror əməliyyatlarından sonra ermənilərin Qarabağdan kütləvi köç etməsinin və Qarabağa geri dönmək istəməsinin ən əsas səbəbi məhz onların bütünlüklə azərbaycanlılara qarşı soyqırımında iştirak etməsi ilə cinayət məsuliyyətinə cəlb edilmələri qorxusudur. V.Dadaşov qeyd edir ki, Xocalıda 30 ildən sonra soyqırımı qurbanlarının xatirə-



müharibəsi ədalətin təntənəsi olsa da, cinayətkarlar beynəlxalq tribunala çıxarılmalıdır". Q.Hüseynli qeyd edib ki, "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülən işlərin nəticəsidir ki, bir sıra ölkələr Xocalıda törədilən cinayətləri soyqırımı kimi tanıyıb.

Onun fikrincə, bu soyqırımı Azərbaycanın dünyadakı bütün səfirlikləri tərəfindən təbliğ olunmalı, diasporalar bu istiqamətdə ciddi işlər görməlidir. "Əslində, dünyanın Azərbaycan həqiqətləri ilə bağlı ikili, qərəzli münasibət Xocalı soyqırımı ilə bağlı etinasız yanaşmalarda özünü biruzə verir. Beynəlxalq ictimaiyyətin, daha dəqiq desək, dünyanın güclü dövlətlərinin Xocalıda Ermənistan silahlı quldurlarının törətdiyi soyqırımı cinayətinə görə susması, əksinə, 30 ildən sonra Azərbaycanın öz gücü ilə Xocalının qisasını alması hadisəsinə qısqanc yanaşmaları bu gün də müşahidə olunur". Q.Hüseynli Xocalı soyqırımı qurbanlarının, heç şübhəsiz ki, yaddan çıxmayacağını və bu ağrının, acının insanlarımızın ürəyində, şüurunda qalacağını bildirib. Onun sözlərinə görə, biz dünyanın da ədalətsizliyini unutmamalıyıq.

Professor hesab edir ki, Xocalı məhz 2023-cü il oktyabrın 15-də başı üzərində üçrəngli bayraq dalğalanandan sonra yenidən doğuldu, Xocalı soyqırımı qurbanlarının dünyaya tuşlanan harayı, qışqırığı bir qədər səngidi. Onun fikrincə, Xocalı soyqırımını törədən cinayətkarlar kimi, bu haqsızlığa susan dövlətlər, dünya da məsuliyyət daşıyır. "Bir millətə qarşı müsəlman, türk, azərbaycanlı olduğuna görə törədilən bu vəhşilik, bir gün bu cinayətə susqun qalan dünya güclərinin öz dövlətinə, öz xalqına qarşı baş verməsin deyə biz susmamalıyıq".

Onun fikrincə, Azərbaycanın təbliğat maşını daha çevik və daha qətiyyətlə işləməlidir. Əks təqdirdə, Ermənistanın yalançı təbliğatçıları, soyqırımından sonra etdikləri kimi, bu gün də az qala, erməni cinayətlərini Azərbaycanın üzərinə atmağa çalışırlar.

"Hələ 1992-ci ildə Azərbaycan rəhbərliyində olanlar, Xocalı soyqırımı hadisəsini öz cəmiyyətindən gizlətməyə çalışdığı vaxtlar ermənilər yaydıqları məlumatlarda göstərirdilər ki, guya müsəlman azərbaycanlılar xristian erməniləri qırıb, məhv edirlər. Hələ o zaman Roma Papası II İohan Pavel deyirdi ki, xristian dünyasının forpostu kimi sizin çəkdiyiniz əzablara ürəyimiz ağrıyır, o torpaqlara gəlib xristian məzarları üzərində öz vəfa borcumuzu yerinə yetirəcəyik. Biz həmişə baş verən hadisələrin yayılmasında gecikmişik. Ermənilər isə bunu erməni qırğını kimi təqdim edib. Ona görə də çalışmalıyıq, Xocalı soyqırımını bütün detalları ilə çatdıraq".

> *Əslində, dünyanın Azərbaycan həqiqətləri ilə bağlı ikili, qərəzli münasibət Xocalı soyqırımı ilə bağlı etinasız yanaşmalarda özünü büruzə verir*

> *Müstəqil Azərbaycanın tarixində ilk dəfə xocalılıların Xocalı soyqırımını öz torpağında yad etmələri çox vacib amildir*

> *Biz bundan sonra da Xocalıya ədaləti özümüz öz gücümüzlə, təbliğatımızla qazandırmalıyıq*

sinin anılması, ölkə başçısının orada beynəlxalq ictimaiyyətə çağırışı, verdiyi mesajlar Azərbaycan xalqının dünyanın ədalətsiz, vicdansız davranışına dözmək fikrində olmadığını bir daha bəyan etmiş oldu.

"Biz beynəlxalq aləmin Azərbaycan həqiqətlərinə olan ikili yanaşmasını gördük. Eyni zamanda 30 ildir tapdanan haqqının dünya birliyi tərəfindən hansı laqeyd, etinasız yanaşmada olduğunu da gördük. Məhz buna görə də Azərbaycan bir oldu və dünyadan gözlədiyi ədaləti, hörməti özünün gücü ilə aldı. Heç şübhəsiz, 30 illik işğal dövründə istər işğalçı Ermənistandan, istərsə də guya münaqişəni həll etmək istəyən vasitəçi dövlətlərdən gördüklərimiz bizə bir dərsdir. Ona görə də biz bundan sonra da Xocalıya ədaləti özümüz öz gücümüzlə, təbliğatımızla qazandırmalıyıq, gətirməliyik. Dünyanın "haqq-ədalət" carçılarına yalançı, simasız üzlərini də açıb göstərməliyik".

✍ ***Tahirə Qafarlı***

# Bələdiyyələri birləşdirən səbəblər

*Azərbaycanda bələdiyyələrin sayı, təxminən, iki dəfə azaldılacaq. Bununla bağlı Prezident İlham Əliyevin təqdimatı ilə Milli Məclisə “Bələdiyyələrin birləşməsi, fəaliyyəti, ayrılması və ləğv edilməsi haqqında” qanun layihəsi daxil olub. Layihəyə əsasən, min evdən az olan kəndlərin bələdiyyəsi birləşdiriləcək və böyük bələdiyyələr yaradılacaq. Sənəddə qeyd olunur ki, təşkili və ya yenidən təşkili nəticəsində əhalisinin sayı 3 min nəfərdən və ya ev təsərrüfatlarının sayı 1 000 vahiddən az olan bələdiyyələrin yaradılmasına onlarda yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətləri nəzərə alınmaqla yol veriləcək.*



## Qanun

Nəzərdə tutulan ev təsərrüfatlarının uçotu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada aparılacaq. Layihəyə əsasən, adı birləşən bələdiyyələr arasında əhalisinin sayı ən çox olan bələdiyyənin adına uyğun müəyyən ediləcək.

Yeri gəlmişkən, hazırda ölkədə 1 606 bələdiyyə var. Qanun layihəsi qəbul ediləcəyi təqdirdə, Azərbaycanda 700-dən artıq bələdiyyə fəaliyyət göstərəcək. Milli Məclis bununla bağlı layihə sənədini martın 1-də müzakirəyə çıxaracaq.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Milli Məclisin Regional Məsələlər Komitəsinin üzvü, deputat Tahir Rzayev deyib ki, Azərbaycanda bələdiyyə institutunun təkmilləşdirilməsi məsələsi vacib idi:**

“Məlum olduğu kimi, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkiləri keçirilərkən Konstitusiyaya istinad edilmişdi. Bələdiyyələrin birləşməsi, ayrılması və ləğv olması haqqında qanunvericilik də var. Qanuna uyğun olaraq, vətəndaşların xahişi ilə hər bir yaşayış məntəqəsində bələdiyyə yaradıla bilər. Sonrakı müşahidələr göstərdi ki, kiçik bələdiyyələr özünü doğrultmur. Onların torpaq sahəsi, mülkiyyəti yoxdur və maliyyə vəsaitləri həddən artıq azdır. Bu gün bələdiyyələrin sayı olduqca çoxdur. Məsələn, əhalisi Azərbaycan əhalisi qədər olan ölkələrdə təxmini 200-250 bələdiyyə fəaliyyət göstərir. Ona görə də parlamentdə dəfələrlə bu məsələ qaldırılıb”.

Deputat vurğulayır ki, bu gün kiçik bələdiyyələrin fəaliyyəti vətəndaşları qane etmir və bələdiyyələr haqqında mənfi fikir formalaşır: “Bir çoxları deyir ki, bu qurum əhəmiyyətsiz, heç bir işə yaramayan qurumdur və ləğv olunmalıdır. Əslində, bələdiyyələr bugünümüz üçün vacib olan demokratik təsisatdır. Ancaq onların fəaliyyəti yüksəldilməlidir”.

Milli Məclisin üzvü əlavə edib ki, bələdiyyələrə daha səriştəli, bilikli, bu sahədə bacarığı, təcrübəsi olan insanlar gəlməlidir: “Bu günədək ölkədə bələdiyyələrin birləşməsi, ləğv edilməsi prosesi baş verib. Bu islahatların müsbət nəticələrinin də şahidi olmuşuq. Əgər bu gün hər hansı bir kənddə fəaliyyət göstərən bələdiyyə heç bir maliyyə bazasına malik olmayan, yerli əhəmiyyətli sosial-iqtisadi məsələləri həll edə bilmir və insanlarla münasibət qurmağı bacarmırsa, onun fəaliyyəti heç kimə lazım deyil. Bələdiyyələr birləşəcəksə onların maliyyə vəsaiti də artacaq. Bu zaman həm idarəetmə yaxşı olacaq, həm

“

*Bu gün kiçik bələdiyyələrin fəaliyyəti vətəndaşları qane etmir və bələdiyyələr haqqında mənfi fikir formalaşır*

*Bələdiyyələrin sayının azaldılması müsbət hal olsa da, məsələyə kompleks yanaşma vacibdir*

də kadrların səviyyəsi yüksələcək. Bələdiyyələrin bu gün kifayət qədər səlahiyyəti var. Onların bir çoxu bu səlahiyyətləri müəyyən qaydada həyata keçirə bilmir. İşini görə bilməyən bələdiyyələr yeni səlahiyyətlər istəyir.

Ona görə də hesab edirəm ki, bələdiyyələrin sayı azaldılmalıdır. Biz bu il ölkə olaraq bələdiyyə seçkilərinə gedirik. Əlbəttə, bu prosesin baş verməsi seçkilərin daha şəffaf, demokratik, mütəşəkkil keçirilməsinə imkan verəcək”. T.Rzayev vurğulayır ki, Milli Məclisə daxil olan “Bələdiyyələrin birləşməsi, fəaliyyəti, ayrılması və ləğv edilməsi haqqında” qanun layihəsinin qəbul edilməsi bələdiyyələrin formalaşdırılmasına, onların fəaliyyətinin yüksəldilməsinə təkan verəcək:

“Bəzən bu proses bələdiyyələrə etimadsızlığın bir nəticəsi kimi qiymətləndirilir, lakin belə deyil. Belə ki, bir çox xarici ölkələrdə bələdiyyə institutları ilə yaxından tanış olmuşuq. Həmin ölkələrdə də bundan əvvəl kiçik bələdiyyələr olub, lakin sonradan birləşdirilərək böyük bələdiyyələr, assosiasiyalar, regional bələdiyyələr kimi formalaşdırılıb və qənaətbəxş nəticələr əldə olunub. Düşünürəm ki, Azərbaycanda da sözügedən proses, bələdiyyələrin birləşdirilməsi müsbət nəticəsini verəcək”.

■ **Mövzu ilə bağlı ekspert Abil Bayramov isə qeyd edir ki, bələdiyyələrin sayının azaldılması müsbət hal olsa da, məsələyə kompleks yanaşma vacibdir:**

“Bələdiyyələrin sayının azaldılması hesabına böyüdülməsi yaxşı təşəbbüsdür. Amma təkcə say azaltmaqla bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsini təmin etmək mümkün deyil”. Bununla yanaşı, digər islahatlar da paralel aparılmalıdır. Həmçinin bələdiyyələrin səlahiyyətlərinin artırılmasına, səlahiyyətlərinin tam və müstəsnalığının təmin olunmasına ehtiyac var. Yerli özünüidarə haqqında Avropa Xartiyasına qoşulmuşuq. Xartiyanın tələbinə əsasən bələdiyyələrin öz səlahiyyətlərini həyata keçirməyə imkan verəcək dayanıqlı maliyyə mənbələri olmalıdır. İndiki qanunla təsbit olunmuş maliyyə mənbələrinə diqqət yetirəndə həmin mənbələrin dayanıqlı olmadığını görürük.

Məsələn, bələdiyyələr fiziki şəxslərdən torpaq, əmlak vergisi ala bilər. Digər mənbə yerli əhəmiyyətli tikinti materiallarından götürülən mədən vergisidir. Bələdiyyələrin mütləq əksəriyyətinin ərazisində isə yerli əhəmiyyətli tikinti materialalı yoxdur. Başqa maliyyə mənbəyi bələdiyyə müəssisəsindən alınan mənfəət vergisidir, amma belə müəssisələr də demək olar ki, mövcud deyil. Yəni hazırda bələdiyyələr üçün tanınan maliyyə mənbələri dayanıqlı və bələdiyyənin səlahiyyətini həyata keçirməsini təmin edə biləcək qədər yetərli deyil”.

✍ **Sevinc**

# Sumqayıt hadisələri təxribat idi

***1988-ci il fevralın 27-29-da Sumqayıtda baş vermiş bütün hadisələr erməni separatçılarının düşünülmüş planının və bacarıqla həyata keçirdikləri əməliyyatın nəticəsi idi. Nəzərə alaq ki, baş vermiş bu təxribatın izləri hələ 1987-ci ildən hiss edilirdi. O zaman ermənilər tərəfindən müəyyən təxribat planlarının hazırlandığı ilə bağlı bizə məlumatlar daxil olurdu.***

Hələ 1970-ci illərdə yaxınlarımızdan eşidirdik ki, “Krunk” cəmiyyətinə ermənilər tərəfindən müxtəlif ianələr toplanılır. Bir müddət keçdikdən sonra hamıya məlum oldu ki, ermənilərin canfəşanlıq göstərmələrinin səbəbi “böyük Ermənistan” xülyası imiş. Onlar bu xəyallarını reallaşdırmaq üçün müxtəlif planlar hazırlayırdılar. Sonrakı dövrlərdə də məlum oldu ki, Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək istəyirlər. Həmin illərdə ermənilər Azərbaycan neftinin guya rentabelli olması ilə bağlı Kremllə danışıqlar aparırdılar. Bununla da əllərinə düşən müxtəlif vasitələrlə gələcək təxribatlar üçün əsaslar yaradırdılar.

■ **Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli QHT Forumunun prezidenti Rauf Zeyni deyib. O qeyd edib: “1980-ci illərdə ictimaiyyət geniş informasiyaya sahib deyildi. Sadəcə, separatçı ermənilərin hansısa cəmiyyətlər vasitəsilə Azərbaycanın müstəqilliyinə yönəlik müəyyən təxribatlar hazırladıqları barədə məlumatlar eşidirdik.** Bundan əlavə, şəhərdə tanıdığımız ermənilərin bəziləri də özlərini şübhəli aparırdılar. Sumqayıt hadisələri bütövlükdə Azərbaycanın gələcəyi üçün təhlükə yaradılmasına, ölkənin beynəlxalq aləmdə nüfuzdan salınmasına hesablanmış bir təxribat idi”.

QHT sədri təxribatın SSRİ rəhbərliyi və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi, erməni lobbisi və Erməni Milli Assambleyası tərəfindən hazırlanaraq həyata keçirildiyini bildirib. İstintaq zamanı müəyyən edilib ki, 1988-ci il fevralın 27-29-da Sumqayıt şəhərində baş vermiş məlum hadisələrin fəal iştirakçılarından biri məhz Eduard Qriqoryan olub. Ancaq Eduard Qriqoryan, sadəcə, icraçı olub. Onu təxribat üçün hazırlayıb, prosesə yönəldərək lazımi vasitələrlə təmin ediblər.

R. Zeyni 1988-ci ildə Qərbi Azərbaycanda yurd-yuvalarından qovulmuş azərbaycanlıların böyük bir hissəsinin Sumqayıtda yerləşdirildiyini xatırladaraq vurğulayıb: “Sumqayıtda kriminal vəziyyət çox gərgin idi. Keçmiş məhkumların xeyli hissəsi şəhərdə məskunlaşmışdı. Bununla da hadisələrdən əvvəl və proses zamanı şəhəri gərginlikdə saxlamaq istəyirdilər. Həmin illər Sumqayıtın sənaye potensialı çox güclü idi, belə ki, şəhər 70-dən çox xarici ölkəyə müxtəlif sənaye məhsulları ixrac edirdi. Ermənilər ixracla məşğul olan şəhərin adını informasiya müharibəsində zədələmək istəyirdilər və Sumqayıt vasitəsilə Azərbaycanın beynəlxalq imicinə zərbə vurmaq niyyəti güdürdülər. Hadisələr o vaxta təsadüf edirdi ki, artıq Dağlıq Qarabağda separatçılar qondarma rejimin nümayəndələri ilə gizli danışıqlar apararaq planlar hazırlayırdılar. Belə ki, 1988-ci ilin fevralın 21-də həm İrəvanda, həm də Xankəndidə Dağlıq Qarabağ Muxtar Vilayətinin Vilayət Partiya Komitəsi, Kremldən İrəvana qədər bütün aidiyyəti qurumlar hamısı işə düşmüşdü”.

Bir neçə il əvvəl Baş Prokurorluqda Sumqayıt hadisələrinin istintaqının bərpa edildiyini xatırladan R.Zeyni bildirib ki, istintaq müddətində bütün aidiyyəti qurumlar, hüquq-mühafizə orqanları öz üzərinə düşən



“

*Təəssüflər ki, o zaman istintaqı SSRİ prokurorluğunun nümayəndələri aparırdılar*

vəzifələri layiqincə yerinə yetirdilər və hadisələrin iştirakçıları istintaqa cəlb edildi. Sumqayıt hadisələri törədilən zaman Azərbaycanın ovaxtkı rəhbərliyi çevik davranıb milli maraqları düşünərək, SSRİ rəhbərliyindən qorxmadan peşəkarlıq nümayiş etdirsəydi, o dövrdə də Sumqayıt hadisələrinin araşdırılması ilə bağlı istintaq komissiyası yaradıla bilərdi. Beləliklə, hadisələrə operativ, çevik reaksiyalar vermək mümkün olardı.

Təəssüflər ki, o zaman istintaqı SSRİ prokurorluğunun nümayəndələri aparırdılar. Həmin şəxslər də istintaq materiallarının əksəriyyətini özləri ilə götürüb Moskvaya getdilər. Respublikanın ozamankı rəhbərliyi heç bir müqavimət göstərə bilmədi. Beləliklə, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin erməni millətçiləri ilə birgə törətdikləri bu təxribat birbaşa Azərbaycan xalqının adına yazıldı. Bu gün də hadisələrin üzərindən 36 il keçməsinə baxmayaraq, yenə də sumqayıtlılara və azərbaycanlılara heç bir aidiyyəti olmayan bu qara ləkəni üstümüzdən təmizləyə bilmirik. Ancaq istintaq materialları ilə yaxından tanış olan və onun mahiyyətini bilən hüquq-mühafizə orqanlarının əməkdaşları hadisələrin əsl məqsədinə bələddirlər.

1991-1992-ci illərdə Sumqayıt Şəhər Xalq Deputatları Sovetinin deputatı kimi dəfələrlə çıxışlarımda bu hadisələrlə bağlı İstintaq Tədqiqat Komissiyasının yaradılmasını təklif etmişdim. 1992-ci il sentyabrın 29-da Xalq Deputatları Soveti sessiyasının qərarına əsasən Sumqayıt hadisələrinə hüquqi-siyasi qiymətin verilməsi ilə bağlı Deputat İstintaq Komissiyası yaradıldı. Biz həmin komissiyada xeyli işlər gördük və daha sonra sənədləri müvafiq olaraq Milli Məclisə təqdim etdik.

QHT sədri vurğulayıb ki, hər il Sumqayıt hadisələrinin ildönümü ərəfəsində bu təxribat barədə məlumatlar mediada geniş işıqlandırılır. Bundan əlavə, qeyri-hökumət təşkilatları tərəfindən də bir sıra tədbirlər həyata keçirilir.

“Biz Sumqayıt hadisələrinin əsl mahiyyətini, bunun “böyük Ermənistan” xülyası çərçivəsində həyata keçirilən təxribat olduğunu dünya ictimaiyyətinin diqqətinə çatdırmalıyıq. Bütün dünya bilməlidir ki, ermənilər “böyük Ermənistan” qurmaq xəyalı ilə öz soydaşlarını qətlə yetiriblər.

Bildiyiniz kimi, o zaman əsasən “Krunk” cəmiyyətinə üzvlük haqqı verməkdən imtina edən ermənilər qətlə yetirilib. Xatırladım ki, təxribatlar nəticəsində Sumqayıtda fövqəladə vəziyyət elan olundu və şəhərə ordu yeridildi. Şəhərə ordu yeridilməsinin nəticəsi olaraq üç gün davam edən iğtişaşlar nəticəsində 32 nəfər qətlə yetirildi. Onlardan 26-sı erməni, 6-sı isə azərbaycanlı olub. Yüzlərlə şəhər sakini isə bu prosesdən ziyan çəkdi. Dörd mindən çox insan inzibati cəzaya məruz qaldı. Hadisələr zamanı öz hisslərini boğa bilməyən 96 gənc cinayət məsuliyyətinə cəlb edildi və onlara müxtəlif cəzalar verildi. Əhməd Əhmədov adlı şəxs də heç bir əsas olmadan güllələnməyə məhkum edildi”, - deyə R.Zeyni diqqətə çatdırıb.




■ **2024-cü il fevralın 23-də ABŞ Rusiyaya qarşı növbəti sanksiyalar paketini tətbiq edib. Rus mediası xəbər verir ki, Vaşinqtonun yeni sanksiyalar paketinə 500 fiziki və hüquqi şəxs daxil olub.**

Sanksiyalar ABŞ Maliyyə Nazirliyi, Ticarət Nazirliyi və Dövlət Departamenti tərəfindən birgə tətbiq olunub. Sanksiyalar paketində, həmçinin, Rusiyanın Kəlbəcərdə qızıl yataqlarını istismar edən ”GeoPro-Mining” şirkətlər qrupu da yer alıb. Belə ki, şirkətlər qrupunun Ermənistandakı aktivlərinə ”Zəngəzur Mis-Molibden Kombinatı”, Zod qızıl yatağını istismar edən ”GeoPro-Mining Gold”, Ararat qızıl çıxarma zavodu və ”Əkərək (Aqarak) Mis-Molibden Kombinatı” daxildir.



■ **SSRİ-nin sonuncu baş naziri Nikolay Rıjkov vəfat edib. Bu barədə Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matvienko “Telegram” kanalında yazıb.**

”Möhtəşəm və parlaq insan insan olan Nikolay İvanoviç Rıjkov həyatdan getdi. O, əsrə bərabər, unikal taleyə malik insan və unikal miqyaslı dövlət xadimi idi, böyük ürəyə malik idi. Mənim üçün Nikolay İvanoviç “zəhmətkeş insan”ın ən parlaq nümunəsidir. Biz onunla çoxdan tanış idik, uzun illər Federasiya Şurasında birgə çalışmışıq. Mənim üçün Nikolay İvanoviçin ölümü böyük şəxsi sarsıntıdır”, - deyə o yazıb. Qeyd edək ki, 94 yaşında vəfat edən Rıjkov 1985-1991-ci illərdə keçmiş SSRİ Nazirlər Sovetinin sədri işləyib.



■ **Fevralın 18-də İsrailin Bakıdakı Səfirliyi Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə birgə öz binasında təlim keçirib.**

Təlim ölkələr arasında təhlükəsizlik sahəsində əməkdaşlığımızı möhkəmləndirməyə və genişləndirməyə yönəlmiş davamlı əməkdaşlığın bir hissəsidir. “Biz səfirliyin və diplomatik heyətin təhlükəsizliyini təmin etdiklərinə görə Azərbaycan Respublikasının hüquq-mühafizə və təhlükəsizlik orqanlarına minnətdarıq. Bu birgə təlim çox uğurlu keçdi və ölkələrimizin möhkəm təhlükəsizlik əməkdaşlığına mühüm əlavə idi. Azərbaycan dövlətinin, bütün diplomatik nümayəndəliklərin, o cümlədən, İsrail səfirliyinin təhlükəsizliyinə sadiqliyi göz qabağındadır və sarsılmazdır.



■ **Bakı şəhərində yerləşən 3 saylı (Yasamal rayonu) “ASAN xidmət” mərkəzi zəruri təmir-bərpa işləri ilə əlaqədar 1 mart tarixindən bir ay müddətinə bağlanacaq.**

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vətəndaşlar qeyd olunan tarixdən Bakı şəhərində yerləşən digər “ASAN xidmət” mərkəzlərinə müraciət edə bilərlər. Hazır sənədlərini 3 saylı “ASAN xidmət” mərkəzindən əldə etməli olan vətəndaşlardan 2024-cü il martın 1-dən etibarən 7 saylı Bakı “ASAN xidmət” mərkəzinə müraciət etmələrini xahiş edilir. Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev küçəsi, 83.



■ **Azərbaycan su ehtiyatı məhdud olan ölkədir. Respublikamızın yerüstü su ehtiyatları 30 milyard kubmetr təşkil edir. Bu ehtiyatların yalnız 30 faizi respublika ərazisində, 70 faizi isə qonşu ölkələr ərazisindən daxil olur.**

Bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Milli Məclisdə “Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar” mövzusunda ictimai dinləmədə deyib. Agentlik sədri bildirib ki, son illər baş verən iqlim dəyişiklikləri səbəbindən respublikamızda yerüstü su ehtiyatları kəskin azalıb: ”Bu səbəblərdən ölkə ərazisində su ehtiyatlarının səmərəli istifadəsinin təmin edilməsi, su itkilərinin qarşısının alınması sistemlərinin müasir səviyyədə yenidən qurulması, yeni su mənbələrinin yaradılması tələb olunur”.



■ **İşğaldan azad edilmiş ərazilərdə Xaçınçay və digər su anbarları, kanallarının tikintisi başa çatdırılıb. Bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Milli Məclisdə “Ölkənin su təsərrüfatı: problemlər və yeni çağırışlar” mövzusunda ictimai dinləmədə deyib.**

O qeyd edib ki, Laçında 2022-ci ildə başlanmış su anbarının tikintisinin bu ilin ilk yarısında yekunlaşdırılması planlaşdırılır. “Cəbrayılda Qız qalası su anbarının və bir sıra digər obyektlərin layihələndirilməsi işləri tamamlanıb. Şuşa şəhərində içməli su sisteminin yenidən qurulması işlərinə başlanıb. Laçın şəhərinin içməli, yağış suları sistemləri yaradılıb. Xankəndi, Xocalı, Qubadlı kimi məskunlaşma olacaq ərazilərdə içməli su sistemləri qurulur”, - deyə o əlavə edib.

# Qızıl rekord həddə bahalaşıb

***Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,2 faiz artaraq 2 043 ABŞ dollarına bərabər olub. Birja məlumatlarına əsasən, COMEX-də gümüşün bir unsiyasının qiyməti isə 0,07 faiz artaraq 22,75 dollar təşkil edib. Qeyd edək ki, son illər dünya birjalarında qızıl və gümüşün bahalaşmasına baxmayaraq xüsusilə qızıla tələbat yüksəkdir. Hətta ötən il qlobal bazarda qızıla olan tələbat rekord səviyyəyə çatıb.***



**Aktual**

Belə ki, Dünya Qızıl Şurasının (WGC) "Qızıl Tələb Trendləri 2023" hesabatında yer alan məlumata görə, qlobal qızıl tələbi keçən il 3 faiz artaraq, 4 min 898 tonu ötüb. Bu, rekord göstərici sayılır. Şuranın hesabatında ümumi qızıl tələbinin keçən il 2022-ci ilə nisbətən 3 faiz artaraq 4 min 898,8 ton rekord səviyyəyə çatdığı ifadə edilib. Hesabatda qeyd olunub ki, qlobal illik qızıl zərgərlik tələbi keçən il 2093 ton olub və əvvəlki ilə nisbətən əhəmiyyətli bir dəyişiklik baş verməyib. Texnoloji və elektron məhsullarda istifadə edilən qızılın miqdarı hesabatda ilk dəfə olaraq 4 faiz azalaraq illik 300 tondan (297,9 ton) aşağı düşüb.Bu gün Azərbaycanda qızıl bazarındakı qiymətlərdə xeyli artım müşahidə olunur.

Yeri gəlmişkən, daşınmaz əmlakdan sonra qızıl bütün dövrlərdə sərmayə yatırımı üçün ən etibarlı vasitə olub. Daşınmaz əmlaka yatırım etmək imkanında olmayan vətəndaşlar vəsaitlərini qızıla yatırım etməklə saxlamağa çalışırlar. Bəs, görəsən, Azərbaycanda qızıl bazarında vəziyyət necədir? Qızıla tələbat varmı? Vətəndaşlar daha çox hansı əyarda qızıl məmulatı almağa üstünlük verirlər?

Qeyd edək ki, Azərbaycana qızıl əsasən Türkiyə, İtaliya, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Rusiya, Hindistan, Tailand və digər ölkələrdən idxal olunur. Yerli bazarda təqdim olunan məmulatların təxminən 50-55 faizi Azərbaycan istehsalı, geri qalan hissəsi isə idxaldır.

Qızıl satışı ilə məşğul olan sahibkarların sözlərinə görə, alıcıların əsas tələbatı Türkiyə və Rusiya istehsalı olan 585 əyarlı qızıllaradır. Bununla yanaşı, yerli müştərilər İtaliya qızıllarına da üstünlük verirlər. Hazırda bazarda 585 əyarlı qızılın qiyməti 75-80 manatdan, 750 əyarlı məmulatların qiyməti isə 95-110 manatdan başlayır. Bu, qramla satılan qızıl məmulatları seqmentinə aiddir. İkinci seqment isə brend məmulatlardır. Onlarda tələbat əyarına və qramına görə deyil, brendin öz dəyərinə görə qiymət verilir.

Sahibkarlar qızıl bazarında bahalaşmanın olduğunu da təsdiqləyiblər və bildiriblər ki, bahalaşma dünya bazarında qızılın qiymətinin artması ilə bağlıdır.

*"Azərbaycan bazarı qlobal qızıl bazarlarına zəif inteqrasiya olunub*

*Qızıl bazarında tələbin artması qiymətlərin bahalaşmasına birbaşa təsir edir*

*Dünya birjalarında qızılın qiymətinin qalxması qlobal maliyyə bazarındakı vəziyyətlə bağlıdır*

Məsələ ilə bağlı iqtisadçı-ekspert Fuad İbrahimov bildirir ki, ümumiyyətlə, son 10 ildə qızılın qiyməti davamlı şəkildə bahalaşıb: "Bunun da bəzi səbəbləri var. Məsələn, son 3-4 ildə qızıl bəzi ölkələrin ehtiyat qiymətinin kimi diversifikasiya olunmuş və sığortalanmış alternativinə çevrilib. Yəni, öz ehtiyatlarını hansısa dönərli valyuta deyil, qızılda saxlamağa üstünlük verirlər. Əsasən də Türkiyə, Hindistan, Sinqapur və digər inkişaf yolunu tutmuş ölkələr öz qızıl ehtiyatlarını kəskin şəkildə artırmaqla məşğuldur. Ukrayna müharibəsi başlayandan sonra isə Rusiyanın maliyyə kapitalının xarici banklarda dondurulması da göstərdi ki, valyuta ilə ehtiyat saxlamaq təhlükəlidir. Bir neçə dövlət ABŞ dollarından imtina etmək üçün bu yoldan istifadə edir. Qızıl bazarında tələbin artması qiymətlərin bahalaşmasına birbaşa təsir edir".

Ekspert onu da vurğulayır ki, əgər əvvəllər qiymətlər tələb və təklifə əsasən müəyyənləşirdisə, artıq vəziyyət dəyişib: "Bu gün qiymətlər "gözəgörünməz qüvvə" adlandırdığımız spekulyativ proseslərə əsasən tənzimlənir. Onlar bir anda proqnozların əksinə gedərək, qiymətləri yeni trendə daxil edirlər. Bununla belə, tələbat artarsa, qəfildən əks-trend baş verə bilər, yəni qiymət ucuzlaşa bilər. Hazırkı mühitdə bu məsələ istisna olunmur. Bir sözlə, qızıl bazarında vəziyyətin dayanıqlı olmaması gözləniləndir".

Daxili bazarda qızılın qiymətinə gəlincə, ekspert hesab edir ki, bu sahədə müəyyən boşluqlar mövcuddur: "Ölkəmizə qızılın, əsasən, hazır məhsulun gətirilməsi ilə bağlı uçot işləri hələ də tam formalaşmayıb, yəni idxalının, zinət əşyalarının alınması və ölkədən çıxarılması, eləcə də ƏDV ilə bağlı dövriyyəsi, vergi öhdəlikləri lə bağlı rəsmi uçotu aparılmır və şəffafləş mənzərə yoxdur. Məndə olan məlumata görə, zərgərlər İqtisadiyyat Nazirliyi ilə bu məsələnin reallaşması üçün danışıqlar aparırlar qanunvericilik bazası əsasında hansısa bir optimal formada idarə etməyə çalışırlar. Amma buna baxmayaraq daxili qızıl bazarında vahid uçot sistemi yoxdur".

Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov bildirir ki, dünya birjalarında qızılın qiymətinin qalxması qlobal maliyyə bazarındakı vəziyyətlə bağlıdır: "Son illər ərzində, xüsusən də ötən ildən başlayaraq dünyanın maliyyə bazarlarında vəziyyət qeyri-müəyyəndir. Ona görə də, investorlar öz vəsaitlərini qiymətli metallara yatırmağa daha çox üstünlük verirlər. Bu da qızılın qiymətinin artması ilə nəticələnib. Təbii ki, belə hallar periodik olaraq müşahidə edilməkdədir və indiki vəziyyətdə müvəqqəti xarakter daşıyır. Dünya maliyyə bazarlarında "sabun köpüyü" yoxa çıxdıqdan sonra, bir çox şeylər aydınlaşacaq, bundan sonra qiymətli metalların və qızılın qiyməti sabitləşməyə başlayacaq".

Mövzu ilə bağlı iqtisadçı-ekspert Rəşad Həsənov deyib ki, yerli sahibkarlar bu məhsulları ölkəyə gətirən zaman satış qiymətlərini maya dəyəri əsasında müəyyənləşdirməyə çalışırlar.

Onun sözlərinə görə, dünya bazarlarında qiymət dəyişiklikləri kiçik diapazonda olduğundan, onun orta və uzunmüddətli perspektivdə Azərbaycanın qızıl bazarına təsirini gözlənilmir: "İlk növbədə onu qeyd edim ki, Azərbaycan bazarı qlobal qızıl bazarlarına zəif inteqrasiya olunub. Bu əmtəə növü investisiya aləti kimi geniş istifadə olunmadığı üçün qiymətlərə də nisbətən zəif reaksiya verir. Azərbaycanda qızıldan daha çox zinət əşyası kimi istifadə olunur. Dünya bazarlarında qızılın qiymətində dəyişikliklərin kiçik diapazonda olduğunu nəzərə alsaq, bu halda onun orta və uzunmüddətli dövrdə Azərbaycan qızıl bazarına təsirini gözləmirik. Xüsusilə də gündəlik qiymət dəyişikliyi daha çox xam qızılın alışı və satışında baş verir.

Bu məhsulların Azərbaycanın bazarından çıxarılması və daxil olması intensivliyi zəifdir. Ona görə də gündəlik qiymət dəyişikliyinə birbaşa uyğunlaşmanı həyata keçirmək mümkün olmur. Qızılın, sadəcə, zinət əşyası kimi alışı və satışı zamanı bu dəyişikliklərin heç bir təsiri hiss olunmayacaq. Buna təsir edən amillərdən biri ölkədə ümumi dövriyyənin kiçik olmasıdır. Sahibkarlar bu məhsulları ölkəyə gətirən zaman satış qiymətlərini maya dəyəri əsasında müəyyənləşdirməyə çalışırlar. Yəni sahibkarlar qiymətlər bahalaşanda, məhsulun satış qiymətlərini artırır, ucuzlaşdıqda isə zərərə uğramamaq üçün əvvəlki qiymətlərə qayıdırlar".

✍ *Sevinc*

**Aqrar**

***Azərbaycanda aqrar sahədə üzümçülük xüsusi yer tutur. Üzümü çox saxlamaq mümkün olmadığından, daha çox şərab üçün lazım olan sortlara üstünlük verilir. Bu səbəbdən də Azərbaycanın üzüm bağlarının böyük əksəriyyəti bu sortlardan təşkil edilib. Onu da qeyd edək ki, dövlət tərəfindən bağ sahiblərinə təsərrüfatlarını genişləndirmələri, düzgün aqrotexniki qulluq göstərmələri üçün subsidiyalar verilir. Azərbaycanda üzümçülük və şərabçılıq prioritet sahə hesab edildiyindən, bu sahənin inkişafı ilə bağlı bir neçə dəfə dövlət proqramları qəbul olunub. Hazırda "2018-2025-ci illərdə Azərbaycanda şərabçılığın inkişafına dair Dövlət Proqramı" icra edilir.***

# Üzümüm əldə qalıb...



Burada qarşıya qoyulan hədəflərdən biri üzüm sahələrinin genişləndirilməsidir. Dövlət proqramına uyğun olaraq ölkədə yeni, müasir standartlara cavab verən üzüm bağları salınır. İl ərzində yeni salınan üzüm bağlarının sahəsi 7,1 faiz artıb. Ötən il 224,5 min ton məhsul yığılıb ki, bu, 2022-ci illə müqayisədə 5,6 faiz çoxdur. Nəticə etibarilə bağlarda məhsuldarlıq əvvəlki illərə nisbətən artıb. Amma məhsuldarlığın artması ilə paralel olaraq bir sıra hallarda satışla bağlı problemlər müşahidə edilir. Məsələn, Cəlilabadda bu sahə ilə məşğul olan sahibkarlar satış qiymətlərinin ucuzluğundan şikayətlənirlər.

*"Bu sahədəki problemləri aradan qaldırmaq üçün emal sənayesini inkişaf etdirmək lazımdır*

*Burada həm də azərbaycanlı sahibkarların bazar yanaşmasının dəyişməsinə ehtiyac var*

Sahibkarlar bazarda üzümün qiymətinin aşağı olmasından narazıdırlar və bildiriblər ki, bu qiymət onlara sərf etmir. Hətta bəzi sabibkarlar üzüm bağlarının təyinatını dəyişərək başqa kənd təssərrüfatı məhsulu ilə əvəz ediblər. Bu barədə "Report"un Muğan bürosuna danışan sahibkarların sözlərinə görə, son illər məhsulun qiymətinin ucuzlaşması fermerlərin bu sahəyə marağını azaldılıb. Fermerlər həmçinin bildiriblər ki, ötən il baş verən dolu hadisəsi də təxminən üzümün məhsuldarlığını 8-10 dəfə azaldıb.

Məcbur olaraq bağları ləğv edib, digər bitki növlərini əkiblər. Fermerlər, həmçinin məhsulun satışında da çətinlik olduğunu qeyd edir. Onlar daha bir səbəbi mineral gübrələrin qiymətinin artması ilə əlaqələndirir. Bəs, görəsən, belə olan halda dövlət fermerlərə necə kömək edə bilər? Onları üzləşdiyi çətin vəziyyətdən çıxarması üçün hansı addımların atılması mümkündür?

■ **Məsələ ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisad elmləri doktoru, professor Əli Əlirzayev deyir ki, bu sahədəki problemləri aradan qaldırmaq üçün emal sənayesini inkişaf etdirmək lazımdır:** "Bizim əldə etdiyimiz üzümün az bir hissəsi MDB ölkələrinə, o cümlədən Rusiyaya ixrac olunur. Qalan məhsul isə daxili bazara yönləndirilir ki, bundan süfrə üzümü kimi və şərabçılıqda istifadə edilir. Ümumiyyətlə, Azərbaycanda meyvə və bu qəbildən olan bitkilərin istehsalında bu problem var. Bu kimi problemlərin təkrarlanmaması üçün ölkədə mütləq emal sənayesi inkişaf etdirilməlidir. Bu, üzümçülüyə də aiddir. Kənd təsərrüfatının emal sənayesini inkişaf etdirmədən bu problemləri həll etmək mümkün deyil. Fermer nə qədər məhsul istehsal edirsə, onu realizə etmək imkanları olmalıdır. Üzümün bir hissəsi də dərilən kimi satışa çıxarılmalı, qalanı isə emal olunmalıdır. Üzümdən həm şərabçılıqda, həm də onu qurutmaqla istifadə edə bilərik. Hazırda bu məhsulları, xüsusilə qurumuş üzümü idxal edirik. Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında bağlardan da məhsul götürürük. Qarşıdakı illərdə istehsalın artacağı gözlənilir. Bütün bunları nəzərə alaraq regional emal müəssisələrinin qurulması həm məhsulun qiymətinin tənzimlənməsinə, həm də ölkə iqtisadiyyatı üçün əlavə dəyər zəncirinin yaranmasına yardımçı ola bilər. Bu həm də yeni iş yerlərinin açılması deməkdir".

■ **Mövzu ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli bildirir ki, Azərbaycanda üzümçülüyün inkişafı üçün böyük potensial mövcuddur:** "Demək olar ki, sovet dövründə ölkənin əksər rayonlarında xeyli üzüm bağları var idi. Bununla yanaşı, ölkədə çoxlu emal müəssisələri, şərab zavodları var idi. Bu məhsullar həmin müəssisələrdə emal edilir və SSRİ-nin müxtəlif ölkələrinə ixrac edilirdi. SSRİ dağılandan sonra əlaqələr kəsildi. Yerli hökumətin səriştəsizliyi isə mövcud infrastrukturun tamamilə sıradan çıxmasına gətirib çıxardı.

Son 15 ildir ki, Azərbaycanda bu sahənin inkişafına cəhd göstərilir. Bu istiqamətdə müəyyən nəticələr var. Yeni üzüm bağları salınıb, infrastruktur yenilənib və s. Nəticə etibarilə spirtli içkilərin ixracına başlanılıb. Bu proses uğursuzluqla nəticələndi və Azərbaycanın dünyaya şərab satmaq strategiyası baş tutmadı. Bu istiqamətdə daha çox bazar araşdırmalarına ehtiyac var idi. Biz məhsul istehsal etməklə bərabər həm də onun yaxşı piarını qurmalı idik. Məsələn, Azərbaycanda istehsal olunan məhsullar Avropa bazarlarında rəqabət aparmaq gücündə deyil. Düzdür, ayrı-ayrı markaların az qismi Avropa bazarlarına ixrac olunur, amma Avropa bazarlarında Fransa, İspaniya və s. kimi böyük oyunçular var. Bu ölkələr son 100 illikdə şərabçılıq istiqamətində böyük təcrübə əldə ediblər".

İqtisadçının sözlərinə görə, burada həm də azərbaycanlı sahibkarların bazar yanaşmasının dəyişməsinə ehtiyac var: "Azərbaycanın bu sahədə fəaliyyət göstərən sahibkarları çox bəsit düşünürlər. Onlar hesab edirlər ki, bizim təbii, orqanik spirtimiz var deyə bütün dünyaya spirtli içki sata bilərik. Axı, bu belə deyil. Birinci növbədə həmin sahibkarlar məhsulun piarını yaradıb, onu tanıtmalı, brendləşdirməli idilər.

Təbii ki, məhsulların tanıdılması üçün müəyyən vaxta ehtiyac var. Bu məsələdə uğurlu marketinq fəaliyyəti ortaya qoyulmalıdır, bazarlarla bağlı geniş tədqiqatlar aparılmalıdır. Ona görə də yaxın bir neçə ildə burada böyük uğurlar əldə etməyin mümkün olduğuna inanmıram, amma Azərbaycanın xammal baxımından potensialı var, son dövrlər müasir texnologiyaların tətbiq olunduğu müəssisələr yaradılıb. Tam gücü ilə işləməsə də, onlardan yararlanmaq mümkündür. Təbii ki, uzunmüddətli dövr lazımdır, o müəssisələri işlədən sahibkarların psixologiyasında da dəyişikliyə ehtiyac var".

✍ *Sevinc*

# Manatla pul kütləsi əhəmiyyətli dərəcədə artıb

***2024-cü il fevralın 1-nə Azərbaycanda manatla pul kütləsi ötən ilin analoji dövrü ilə müqayisədə 5,32 milyard manat və ya 18,4 faiz artaraq 28,914 milyard manatdan 34,235 milyard manata çatıb. Hafta.az bu barədə Mərkəzi Banka istinadən xəbər verir.***

Bankın məlumatlarına əsasən, tədavüldə olan nağd pul kütləsi (M0) il ərzində 2,158 milyard manat (16,28 faiz) artaraq 13,258 milyard manatdan 15,416 milyard manata çatıb. Genişlənmiş pul kütləsi (M3) isə əvvəlki il ərzindəki 42,014 milyard manatla müqayisədə 2,883 milyard manat (6,86 faiz) artaraq 44,898 milyard manata çatıb. İl ərzində sövdələşmələr üçün məbləğlər (M1) 4,078 milyard manat (16,51 faiz) artaraq 24,707 milyard manatdan 28,785 milyard manata çatıb.

# Qarabağ Universiteti ilə bağlı ilk vakansiya elan edildi

**Qarabağ Universitetində proqram rəhbəri vəzifəsi üzrə vakansiya elan edilib. Təhsil Nazirliyindən bildirilib ki, tələblərə cavab verən namizədlər müraciətlərini karabakh@edu.gov.az elektron poçt ünvanına göndərə bilərlər.**

Vakansiya üzrə son müraciət tarixi 15 mart 2024-cü ildir. Namizədlər ətraflı məlumatla aşağıdakı elan vasitəsilə tanış ola bilərlər: Qeyd edək ki, Qarabağ Universiteti işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr təlabatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə yaradılıb. Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

# Qızılca xəstəliyinin spesifik müalicəsi yoxdur

**Qızılca xəstəliyinin spesifik müalicəsi yoxdur və xəstəliyin yayılmasının qarşısını almaq üçün tövsiyə olunan intervallla peyvənd etdirməkdir. Əks halda yoluxan şəxslər xəstəliyin ağırlaşmaları ilə qarşılaşa bilərlər.**



Bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi "İnstagram" hesabında Səhiyyə Nazirliyi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutun infeksionisti Səbinə Cəfərova açıqlayıb. Onun sözlərinə görə, peyvənd əsasən uşaqlıq dövründə (12 ay və 6 yaşda) vurulur. 2014-cü ildən vaksin preparatları Azərbaycana Səhiyyə Nazirliyi tərəfindən UNICEF xətti ilə gətirilir. "Valideynlərin nəzərinə çatdırmaq istəyirəm ki, qızılcadan qorunmaq üçün Səhiyyə Nazirliyi tərəfindən təqdim olunan peyvənd cədvəlinə riayət etmək vacibdir.

Həkim məsləhəti kimi valideynlərə bildirirəm ki, övladlarının sağlamlığına diqqətli olsunlar və yoluxma hallarının qarşısının alınması məqsədilə mütləq olaraq 1 və 6 yaşlarında 2 dəfə peyvənd etdirsinlər. Bir daha valideynlərə xatırlatmaq istəyirəm ki, qızılca xəstəliyinin ötürülməsinin qarşını almağının ən effektiv yolu vaksinasiyadır".

S.Cəfərova qeyd edib ki, hansısa bir səbəbdən peyvəndin ikinci dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar tez bir zamanda peyvəndin ikinci dozasını almalıdırlar: "Peyvəndin hər iki dozasını vaxtında almayan 10 yaşa qədər uşaqlar minimum 4 həftə intervalla peyvəndin hər iki dozasını almaları tövsiyə olunur. Valideynlərin nəzərinə çatdırmaq istəyirəm ki, uşaqları vaksinasiya üçün onlara yaşayış yeri üzrə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət etsinlər".

# Xəstələri çarəsiz qoyan "təcili" çağırışlar

***Azərbaycanda "təcili tibbi yardım"la bağlı yalan çağırış edənlərə qarşı cərimələrin artırılması təklif edilir. Bu təkliflə Milli Məclisin deputatı Mələhət İbrahimqızı çıxış edib. Millət vəkili bildirib ki, gün ərzində "təcili yardım"a daxil olan müraciətlərin 30 faizi təsdiqini tapmır, yəni yalan çıxır. Onun sözlərinə görə, "təcili tibbi yardım"a gün ərzində 3000-dən çox müraciət daxil olur: "Bunun da təxminən, 1000-i yalan olur. Nəzərə almaq lazımdır ki, bu gün ölkədə infeksion xəstəliklərin sayında artım müşahidə olunur.***



## Problem

Belə şəraitdə yalan çağırışlar lazımi şəxslərə çatmaq üçün vaxt itkisinə səbəb olur. Yalançı çağırışların qarşısının alınmasında aidiyyəti qurumlar çarəsiz qalıb. Nəzərə almaq lazımdır ki, İnzibati Xətalar Məcəlləsinin 564-cü maddəsinə əsasən, bilə-bilə yalandan yanğından mühafizə və polis orqanlarını, "təcili yardım" və ya digər ixtisaslaşdırılmış xidmətləri çağırmağa görə 100 manat məbləğində cərimə edilir. Təklif edirəm ki, cərimənin məbləği artırılsın".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən tibb sahəsi üzrə ekspert İlqar Hüseynli də hesab edir ki, yalançı çağırışlara yol verənlər ciddi şəkildə cəzalandırılmalıdır:**

"Belə əsassız "təcili tibbi yardım" çağırışı edən insan düşünməlidir ki, "təcili tibbi yardım"ın hər hansısa bir ünvana getməsi üçün müəyyən məsrəf tələb olunur. Bu, həm də sistemin işini pozmuş olur. Həqiqətən "təcili yardım"a ehtiyacı olan şəxs bəzən onlara görə gözləməli olur. Ona görə də çalışmaq lazımdır ki, əsassız "təcili tibbi yardım" çağırışı edən şəxslər cəzalandırılsın. Lakin mən inanmıram ki, gələn zənglərin böyük əksəriyyəti əsassız olsun. Fikrimcə, bu kimi faktlar zənglərin çox cüzi bir faizini təşkil edir. Adətən, zənglərin əksəriyyəti insanların ehtiyacından irəli gəlir. Xeyli sayda adam var ki, həqiqətən də xəstədir, köməyə ehtiyacı var və tək qalır. Onların tibbi yardıma ehtiyacı olur. Eyni zamanda, gələn bütün zənglər qeydiyyata alınır. Əgər yalançı çağırış varsa, onun üstünə düşmək və lazım olarsa, həmin şəxsi müvafiq qaydada cəzalandırmaq olar. Bununla bağlı cərimə məbləğləri də artırılmalıdır. Mən deyərdim ki, bu məbləğ 500 manata çatdırılmalıdır. Bəzi insanları məsuliyyətsiz davranışlarından çəkindirmək üçün bütün cəza vasitələrindən istifadə olunmalıdır".



**İlqar Hüseynli,**
tibb sahəsi üzrə ekspert

> *Bəzi insanları məsuliyyətsiz davranışlarından çəkindirmək üçün bütün cəza vasitələrindən istifadə olunmalıdır*

> *Heç bir ölkədə başağrısı kimi kiçik problemlərə görə "təcili yardım" çağırılmır*

■ **Məsələ ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla bildirib ki, yanlış tibbi çağırışlarla bağlı bir neçə dəfə müzakirələr aparılıb:**

"Dünyanın hər yerində "təcili yardım" sistemi bütövlükdə fərqli prinsipdə fəaliyyət göstərir. Bu sistem qəzaya düşən, ağır durumda olan, ilk tibbi yardıma vacib ehtiyacı olan şəxslərə aiddir. Məsələn, heç bir ölkədə başağrısı kimi kiçik problemlərə görə "təcili yardım" çağırılmır. İnsanlar öz-özünə ilk tibbi yardım göstərməyi bacarmalıdır. Onlar ailə həkimindən tövsiyə alaraq problemi həll edə bilərlər.

Təxirəsalınmaz stiuasiyalarda misal olaraq, travmalar, qanaxmalar çeşidlənərək ilk sıraya düzülməli və onlara birinci növbədə yardım edilməlidir".



**Adil Qeybulla,**
tibb elmləri doktoru, professor

Onun sözlərinə görə, bu kimi məsələlərdə vətəndaşlar məsuliyyətli olmalıdırlar: "Məsələn, qonşu Rusiyada bununla əlaqədar müvafiq cəzalar mövcuddur. Həmin şəxs əməlinə görə həbs oluna bilər. "Təcili yardım"a yanlış müraciət olunduqda başqa bir yerdə ehtiyacı olan xəstə həyatını itirə bilər. Ona görə də bu kimi halların qarşısının alınması üçün vətəndaşları məsuliyyətli olmağa sövq etmək vacibdir".

✍ Sevinc

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Fərid Turab oğlu Əhmədov Azərbaycan Respublikasının ədliyyə naziri təyin edilib. Bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb. Qeyd edək ki, 2000-ci ildən 2024-cü ilin fevralınadək Azərbaycanda ədliyyə naziri vəzifəsində Fikrət Məmmədov çalışıb. F.Məmmədov yeni formalaşdırılan hökumətdə yer almayıb.

### Həftənin YUBİLYARI



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın 70 yaşı tamam olub. Prezident İlham Əliyevin türkiyəli həmkarına ünvanladığı təbrik məktubunda deyilir: "Bu gün Sizin müdrik rəhbərliyiniz altında Türkiyə Respublikası inkişafının ikinci yüzilliyinə qədəm qoyur. Bu yolda qardaş ölkəyə qarşısına qoyduğu bütün hədəflərə və məqsədlərə çatmağı, yeni müvəffəqiyyətlərə və zəfərlərə imza atmağı arzulayırıq".

### Həftənin BAŞ NAZİRİ



Pakistan tarixində ilk dəfə qadın əyalət baş naziri seçilib. Bu barədə xarici KİV məlumat yayıb. Bildirilib ki, Məryəm Nəvaz Pəncab əyalət məclisindəki seçkilərdə 220 səs toplayaraq əyalətin baş naziri seçilib. Qeyd edək ki, M. Nəvaz Pəncabın keçmiş baş naziri olan Nəvaz Şərifin qızıdır.

### Həftənin "TƏLƏB"İ



"Rusiya sərhədçiləri İrəvanın Zvartnots hava limanında xidmətini dayandırmalıdır". Bu barədə Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirib. Simonyan bunun öz şəxsi fikri olduğunu sözlərinə əlavə edib: "Ölkəmizin sərhədlərini qoruyacağıq, amma əmin deyiləm ki, onlar qoruyacaqlar".

### Həftənin QADINI



Amerikanın "Time" jurnalı "İlin qadını"nı seçib. Bu barədə nəşrin saytında məlumat yayılıb. Bildirilib ki, bu mükafata "Barbie" filminin rejissoru Qreta Gerviq layiq görülüb. Qeyd edək ki, bu filmdən Gerviq 1,4 milyard dollardan çox gəlir əldə edib. Siyahıda idmançılar, aktrisalar və digər sənət adamları yer alıb.

### Həftənin ZƏNGİNLƏRİ



Türkiyənin ən zəngin beş sənət adamı bəlli olub. Bu barədə "Celebsrevealed.-com" saytında məlumat yayılıb. Bildirilir ki, sözügedən məşhurlar sərvətləri ilə ilk beşlikdə yer alıblar.

Həmin siyahını təqdim edirik: aktyor Kıvanç Tatlıtuğ - 466 milyon Türkiyə lirəsi; aktrisa Meryem Üzerli - 311 milyon Türkiyə lirəsi; aktyor Can Yaman - 311 milyon Türkiyə lirəsi; aktrisa Hande Erçel - 249 milyon Türkiyə lirəsi; aktrisa Serenay Sarıkaya - 186 milyon Türkiyə lirəsi.

✍ Azad Əliyev

# Ünsiyyət hər kəs üçün: indi jest dilini öyrənmək daha rahat oldu

**"Nar" ADA Universiteti və "Karlara Dəstək" İctimai Birliyi ilə birgə ərsəyə gətirdiyi "Jestdili.az" saytı tam yeniləndi. İlk elektron jest dili lüğəti, nitq və eşitmə məhdudiyyətli şəxslərin və onların yaxınlarının onlayn şəkildə istənilən yerdə və vaxtda Azərbaycan jest dilini tamamilə pulsuz öyrənməyə imkan verir.**

Saytın yeni versiyasında 4000 sözün video tərcüməsi ilə yanaşı, gündəlik həyatda istifadə edilən 500 cümlə nümunəsi də təqdim edilib. İstifadəçilərin rahatlığını təmin etmək üçün "jestdili.az"ın interfeysi də təkmilləşdirilib. ADA universitetinin İnformasiya Texnologiyaları fakültəsinin tələbələri saytın müasir dizayn, yenilənmiş axtarış sistemi və bir çox digər funksiyalarla zənginləşməsini təmin ediblər.

"Ünsiyyət hər kəs üçün" adlı konfransda "Nar"ın İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin direktoru Əziz Axundov qeyd edib ki, "jestdili.az" saytındakı son yeniliklər bu resursun əhatə dairəsini genişləndirəcək. "Biz müştərilərimizə ən yaxın mobil operator olmaqla yanaşı, ünsiyyət məhdudiyyətlərini aradan qaldırmağı hədəfləyir, daha inklüziv cəmiyyətin qurulmasına dəstək oluruq", - deyə Əziz Axundov vurğulayıb.




Qeyd edək ki, "jestdili.az" layihəsi ən uğurlu sosial təşəbbüs kimi Beynəlxalq İctimaiyyətlə Əlaqələr Assosiasiyası tərəfindən Golden World Award <https://www.nar.az/en/news/nar-qizil-dunya-mukafati/> mükafatına layiq görülüb. "Nar"ın həyata keçirdiyi bütün sosial layihələr haqqında ətraflı məlumatı nar.az/projects <https://www.nar.az/senin-ucun/xeberler?page=1&category=Layih%C9%99l%C9%99r> səhifəsindən əldə etmək olar. "Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## GÜNÜN FOTOSU



Paris moda həftəsi başladı

> # Yaşıl enerjiyə ən çox investisiya qoyan ölkə

**Vüqar Bayramov,**
Milli Məclisin deputatı

Bütün dünya ölkələri tərəfindən qəbul edilən bu qərar ölkəmizə göstərilən böyük etimad və hörmətin bariz nümunəsidir. Səh. 4

## STATİSTİKA



■ **2023-cü ildə nağdsız valyuta bazarında aparılmış əməliyyatların həcmi 29,5 milyard ABŞ dolları ekvivalentində olub.**

Nağdsız valyuta əməliyyatlarının 79 faizi ABŞ dollarında, 21 faizi isə digər valyutalarda aparılıb.

Valyuta əməliyyatlarının 21 faizi banklararası valyuta bazarında (BVB), 79 faizi isə bankdaxili valyuta bazarında (BDVB) həyata keçirilib.



Səh. 7

# Qızıl rekord həddə bahalaşıb